
KHAZAR REVIEW

XƏZƏR XƏBƏR

№ 415 Mart 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA TƏRTƏRİN SUQOVUŞAN QƏSƏBƏSİNDƏ

PRESIDENT ILHAM ALIYEV AND FIRST LADY MEHRIBAN ALIYEVA IN SUGOVUSHAN,TARTAR

Martın 20-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtərin Suqovuşan qəsəbəsində olublar. "Azərişıq" ASC tərəfindən Azərbaycanda texniki göstəricilərinə görə ilk dəfə burada çəkilmiş kabel xəttinin təqdimatında iştirak ediblər.

Sonra onlar fərdi evdə aparılmış təmir-bərpa işləri ilə, tam orta məktəbin bərpasının eskiz layihəsi ilə tanış olublar, yeni tikiləcək məscidin təməlini qoyublar.

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib, Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlini qoyublar.

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının açılışında iştirak ediblər.

Axşamüstü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırıblar. Sonra dövlətimizin başçısı Azərbaycan xalqını təbrik edib.

On March 20, President Ilham Aliyev and First Lady Mehriban Aliyeva visited the Sugovushan settlement of Tartar. They took part in the presentation of the cable line laid by "Azerishig"OJSC for the first time in Azerbaijan for its technical parameters.

Then they got acquainted with the repair work carried out in a private house, a sketch project for the restoration of a high school, and laid the foundation of a new mosque to be built.

They took part in the opening of the "N" military unit of the Ministry of Defense and laid the foundation of a tourism complex to be established on the basis of the Tourism Development Concept.

They took part in the opening of the first rowing training session organized by the Azerbaijan Canoeing and Rowing Federation.

In the evening, President of the Republic of Azerbaijan Ilham Aliyev and First Lady Mehriban Aliyeva lit a holiday bonfire in Sugovushan settlement. Then the president congratulated the Azerbaijani people.





İÇİNDƏKİLƏR

"1mart-Ümumdünya Mülki Müdafiə Günü"nə həsr edilmiş tədbir 6
Avropa ittifaqı (Aİ) və Azərbaycan yeni proqrama start verdi 8
Khazar Journal of Humanities and Social Sciences **jurnalının çapdan çıxmış xüsusi nömrəsində professor, akademik Hamlet İsaxanlının** *"My Karabakh or the Karabakh Knot"* **adlı məqalə-kitabı dərc olunmuşdur** 9
Potensial məktəb direktorları kursunun müdavimləri "Dünya" məktəbində 10
İstanbul Aydın Universitetinin rəhbəri Xəzər Universitetində 12
Psixologia departamentində kitab təqdimatı 14
Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun Florida Dövlət Universitetində qonaq professor kimi fəaliyyəti başa çatmışdır 16
Rövşən Abbasov. **Florida təəssüratlarım** 19
Strasburq Universiteti ilə əməkdaşlıq imkanlarının müzakirəsi 27
Xəzər Universitetinin əməkdaşları EURIE 2022-də 29
"İqlim dəyişikliyinə dair məsuliyyət" layihəsinin (ARCC) yekun konfransı 32
"Xəzər"in bakalavr tələbəsi DİM-in "Açıq qapı" günündə 34
"Xəzər"in sabiq departament müdiri UNEC-də Beynəlxalq İqtisad Məktəbinin (ISE) direktoru vəzifəsinə təyin olunub 35
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 36
Fariz Pirmatov. **Gözlənilməz vəziyyətlərdən necə çıxmağı öyrənmək imkanı** 40
Universitetdaxili "Xəmsə" çempionatı 42
"ABŞ-da təhsil proqramları" mövzusunda məlumat sessiyası 44
Aysun Mahmudzadə. **Düşüncələri yandırmaq olmur** (*esse*) 46
Şəfa Yusifli. **İstəyirəm** (*mənsur şeir*) 48
Təhsil departamentinin tələbəsi beynəlxalq tədqiqat qrantı qazanıb 56
"Xəzər"in müəllimi Mediasiya Şurası İxtisas Komissiyasına üzv təyin olunub 57
Valentin Rasputin. **Fransız dili dərsləri** (*hekayə*) 66

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zamirə Qurbanova

Kompüter tərtibatçısı:
Günel Əkbərova

CONTENTS

An Event Dedicated to "March 1-World Civil Defense Day" 6
The European Union (EU) and Azerbaijan Launched a New Program 8
An Article-Book "My Karabakh or the Karabakh Knot" By Prof. Academician Hamlet Isakhanlı Published in new and special issue of "Khazar Journal of Humanities and Social Sciences" 9
Participants of Potensial School Principals Course at Dunya School 10
Head of Istanbul Aydın University at Khazar University 12
Book Presentation Ceremony in Psychology Department 14
Rovshan Abbasova, Head of the Department of Geograohy and Environment, Ends His Activity as a Visiting Professor at Florida State University 16
Rovshan Abbasov. **My Florida Impressions 19**
Discussion of Cooperation Opportunities With Strasbourg University 27
Khazar University Staff Members at EURIE 2022 29
The Final Conference of the Assuming Responsibility For Climate Change (ARCC) Project was Held 32
Khazar University Bachelor`s Student Attends "Open Day" of SEC 34
Former Department Head at Khazar University Appointed Director of International School of Economics (ISE) at UNEC 35
News of the Institute of Literature of ANAS Named After Nizami 36
Fariz Pirmatov. **Opportunity to Learn How to Deal With Unexpected Situations 40**
The University`s "Khamsa" Championship 42
Information Session on "Study Abroad Programs in the US" 44
Aysun Mahmudzade. **Thoughts Can`t be Burned (*essay in Azerbaijani*) 46**
Shafa Yusifli. **I want (*prose poem in Azerbaijani*) 48**
A Student of Education Department Won an International Ressearch Grant 56
Khazar University Facualty Membeer Appointed a Member of Mediation Council`s Qualification Commission 57
Valentin Rasputin. French lessons (*story in Azerbaijani*) 66

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isakhanli

Associate editor:
Alirza Balayev

Photo:
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zamira Gurbanova

Computer graphics:
Gunel Akbarova

"1 MART – ÜMUMDÜNYA MÜLKİ MÜDAFİƏ GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TƏDBİR

AN EVENT DEDICATED TO "MARCH 1 - WORLD CIVIL DEFENSE DAY"





Martın 1-də Xəzər Universitetində Təbiət elmləri və mühəndislik fakültəsinin və Həyat elmləri departamentinin təşkilatçılığı ilə "1 Mart – Ümumdünya Mülki Müdafiə Günü"nə həsr edilmiş tədbir keçirildi.

Tədbirdə Universitetin rəhbərliyi və müəllim heyəti, tələbələri iştirak edirdilər. Universitetin əməkdaşı, ehtiyatda olan polkovnik-leytenant Mais Talışxanov tədbiri açaraq, tələbələrə mülki müdafiənin əhəmiyyəti, vəzifələri, fövqəladə hallara (FH) qarşı necə hazırlıqlı olmağın yolları haqqında ümumi məlumat verdi. Sonra tədbiri aparmaq üçün söz Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri Solmaz Mirzəliyeva və Təhmin Bəkirova verildi. Beynəlxalq Mülki Müdafiə Təşkilatının inkişaf yolu, Azərbaycanın bu təşkilatda rolu barədə məlumatı tədbir iştrakçılarına həmin fakültənin tələbəsi Nazənin Nəzərova təqdim etdi.

"1 Mart – Ümumdünya Mülki Müdafiə Günü" hər il bir mövzuya həsr edilir. Bu il isə tədbir tələbə Fatma Heydərovanın hazırladığı "Təbii fəlakətlər və böhranlar zamanı köçkün əhalinin mülki müdafiəsi və idarə edilməsi" mövzusunda təqdimatı ilə davam etdirildi. Bundan sonra tələbə Ləman Əhmədova "Pandemiya ilə mübarizə və könüllülərin rolu" haqqında tədbir iştirakçılarına geniş məlumat verdi.

Tədbirin praktiki hissəsində FH zamanı xilasetmə işlərinə aid olan, insanlara ilk yardım zamanı süni tənəffüsün verilməsi və ürəyin qapalı masajının qaydaları tələbə Günel Əlizadə, qanaxma zamanı ilk yardımın qaydalarını isə tələbə Firüzə Gülməliyeva və Səma

On March 1, Khazar University hosted an event organized by the School of Science and Engineering and the Department of Life Sciences, dedicated to "March 1 - World Civil Defense Day."

The event was attended by administration, faculty members and students of the University. Opening the event, Mais Talishkhanov, a retired lieutenant colonel from the University, briefed the students on the importance of civil defense, its responsibilities, and how to prepare for emergencies. Then the floor was given to Solmaz Mirzaliyeva and Tahmin Bakirova, students of the School of Humanities, Education and Social Sciences. Nazanin Nazarova, a student of the same school, presented information on the history and development of the International Civil Defense Organization, the role of Azerbaijan in this organization.

"March 1 - World Civil Defense Day" is dedicated to one theme each year. This year, the event continued with a presentation by student Fatma Heydarova on "Civil protection and management of the IDP population during natural disasters and crises." Afterwards, student Laman Ahmadova briefed the participants on "Pandemic Control and the Role of Volunteers."

In the practical part of the event, the student Gunel Alizadeh demonstrated the rules of artificial respiration and closed heart massage during first aid, and the rules of first aid in case of bleeding were demonstrated by students Firuza Gulmaliyeva and Sema Mehdiyeva. After that, student Najiba Zeynalova presented the

Mehdiyeva tərəfindən nümayiş etdirdilər. Bundan sonra tədbir iştirakçılarına sınıqlar zamanı ilk yardım qaydaları tələbə Nəcibə Zeynalova tərəfindən təqdim edildi. Tələbə Solmaz Mirzəliyeva öz növbəsində müasir dövrdə istehsalatda, məişətdə müxtəlif növ kimyəvi maddələr və onların birləşmələrindən istifadənin artması, GTZM – dən mühafizə qaydaları barədə danışdı, onlarla zədələnmə və zəhərlənmələr zamanı ilk yardım göstərilməsi qaydalarının geniş izahını verdi.

FH yaranan dövrdə, müharibə vaxtı, habelə təbii fəlakətlər və güclü istehsalat qəzaları baş verən şəraitdə rabitə və xəbərdarlıq vasitələrindən istifadə və MM siqnallarının verilməsini tədbir iştirakçılarına Humanitar, təhsil və sosial elmlər fakültəsinin 3-cü kurs tələbələri Əlixan Balaxanlı və Ləman Əhmədova praktiki göstərdilər. Bununla yanaşı, tələbələr Leyla Sadirova və Sevinc Əbişli tərəfindən KZO istifadə olunan fərdi mühafizə vasitələri haqqında məlumat verildi və həmin vasitələrin istifadə qaydaları nümayiş olundu.

Tədbirin sonunda Həyat elmləri departamentinin müəllimləri Zaur Kərimov və Hüseyn Cəfərov FH zamanı əhalinin mühafizəsinin xüsusi əhəmiyyəti haqqında çıxış etdilər və sualları cavablandırdılar.

rules of first aid during fractures to the participants of the event. Solmaz Mirzaliyeva, the student of the university, spoke about the increasing use of various chemicals and their compounds in production and household in modern times, the rules of protection against GTZM (highly hazardous chemicals), gave a detailed explanation of the rules of first aid in case of injury and poisoning.

Alikhan Balakhanli and Laman Ahmadova, 3rd year students of the School of Humanities, Education and Social Sciences, demonstrated the use of communication and warning devices and Civil Defense signals during emergencies, wartime, as well as in the event of natural disasters and major industrial accidents. In addition, students Leyla Sadirova and Sevinj Abishli provided information on personal protective equipment used by combined damage coverage and demonstrated the rules of using these tools.

At the end of the event, teachers of the Department of Life Sciences Zaur Karimov and Huseyn Jafarov spoke to the students about the special importance of ensuring human safety, including the protection of the population during natural and man-made emergencies and answered their questions.









AVROPA İTTİFAQI (Aİ) VƏ AZƏRBAYCAN YENİ PROQRAMA START VERDİ

Tədbirin açılışında Xəzər Universitetində Havanın Keyfiyyətinin Təhlili Mərkəzinin yaradılması əlamətdar fakt kimi qeyd olunmuşdur.

THE EUROPEAN UNION (EU) AND AZERBAIJAN LAUNCHED A NEW PROGRAM

At the opening of the event, the establishment of the Air Quality Analysis Center at Khazar University was noted as a significant fact.

Martın 2-də Aİ "Ətraf Mühit üçün -Su Resursları və Ətraf Mühit Məlumatları" proqramının Azərbaycanda onlayn formatda rəsmi açılışı keçirildi. Proqram Avropa Yaşıl Razılaşmasına və COVID-19-dan sonra yaşıl bərpa proqramına uyğun olaraq təbii ehtiyatların qorunmasında ölkəyə daha çox dəstək verəcək. Proqramın məqsədi Azərbaycanda əhalinin sağlamlığının və rifahının yaxşılaşdırılması, eləcə də Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaqdır. Proqram Su və Sıfır Çirklənmə üzrə Avropa Komanda Təşəbbüsünün bir hissəsidir və bütün vətəndaşlar üçün təmiz (toksiksiz) bir ətraf mühitə doğru irəliləməyə yönəlmişdir.

Tədbirin açılışında 2019-cu ilin iyun ayında Xəzər Universitetində Havanın Keyfiyyətinin Təhlili Mərkəzinin yaradılması əlamətdar fakt kimi qeyd olunmuşdur. Nəzərə çatdırılmışdır ki, Avropa Komissiyası və icraçı tərəfdaşlar Avropa İttifaqının bu yeni dəstəyi çərçivəsində Azərbaycanla əlaqələrini davam etdirib, daha da gücləndirəcək. Onlar birlikdə ətraf mühitə və Azərbaycanda əhalinin rifahına fayda vermək üçün su ehtiyatlarının və ekoloji məlumatların idarə edilməsini yaxşılaşdıracaqlar.

Turan.az və digər saytlar tədbir haqqında xəbər yayımlamışlar:

On March 2, the official launch of the EU "Environment-Water Resources and Environmental Information Program" in Azerbaijan took place online. The program will provide more support to the country in the protection of natural resources in accordance with the European Green Agreement and the post-COVID-19 green recovery program. The goal of the program is to improve the health and well-being of the population in Azerbaijan, as well as to achieve the Sustainable Development Goals (SDGs). The program is part of the European Team Initiative for Water and Zero Pollution and aims to move towards a clean (non-toxic) environment for all citizens.

At the opening of the event, the establishment of the Air Quality Analysis Center at Khazar University in June 2019 was noted as a significant fact. It was noted that the European Commission and the executive partners will continue and strengthen relations with Azerbaijan within the framework of this new EU support. Together, they will improve the management of water resources and environmental information to benefit the environment and the well-being of the people in Azerbaijan.

Turan.az and other websites published news about the event:

https://turan.az/ext/news/2022/3/free/Social/az/2165.htm

KARYERA İNKİŞAF MƏRKƏZİNİN KOORDİNATORU VÖRKŞOPDA

COORDINATOR OF CAREER DEVELOPMENT CENTER AT WORKSHOP

Martın 1-3-də ADA Universitetində "Ali təhsil müəssisələri arasında hab mərkəzlərin yaradılması və uğurlu fandreyzinqin aparılması" (Hub Development between HEIs in Creative Fields and How to Build Successful Fund-Raising) mövzusunda vörkşop keçirilib.

Üç gün davam edən vörkşop`da ADA və xarici universitetlərin əməkdaşlarının mövzu ilə əlaqədar çıxış və təqdimatları olmuşdur.

Tədbirdə Xəzər Universitetindən Karyera İnkişaf Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə iştirak edib.

Sonda vörkşop iştirakçılarına sertifikatlar təqdim olunub.

On March 1-3, ADA University hosted a workshop on " Hub Development between HEIs in Creative Fields and How to Build Successful Fund-Raising."


During the three-day workshop, ADA and foreign university staff members gave speeches and presentations on the topic.

The event was attended by Elnura Ahmadzadeh, Coordinator of the Career Development Center at Khazar University.

At the end, the participants of the workshop were awarded certificates.

"KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALININ ÇAPDAN ÇIXMIŞ XÜSUSİ NÖMRƏSİNDƏ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ "MY KARABAKH OR THE KARABAKH KNOT" ADLI MƏQALƏ-KİTABI DƏRC OLUNMUŞDUR

AN ARTICLE- BOOK "MY KARABAKH OR THE KARABAKH KNOT" BY PROF. ACADEMICIAN HAMLET ISAKHANLI PUBLISHED IN NEW AND SPECIAL ISSUE OF "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES"



Khazar Journal of Humanities and Social Sciences (Xəzər Humanitar və Sosial Elmlər Jurnalı) jurnalının yeni və xüsusi nömrəsi (Cild 24, № 4, 2021) çapdan çıxmışdır. Jurnalın xüsusi nömrəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının "My Karabakh or The Karabakh Knot" ("Mənim Qarabağım və ya Qarabağ düyünü") adlı məqalə-kitabı çap olunmuşdur.

İlkin olaraq ingilis dilində nəşr olunan "Mənim Qarabağım və ya Qarabağ düyünü" məqalə-kitabında H. İsaxanlı Qarabağla bağlı şəxsi xatirələri, həmçinin Qarabağın tarixi, mədəniyyəti, Dağlıq Qarabağ münaqişəsinə aparan tarixi hadisələr, Birinci və İkinci Qarabağ Müharibəsi, onun Qafqaza təsiri və regionun inkişafı üçün həll yollarından bəhs edir.

Məqalənin tam versiyası ilə burada tanış ola bilərsiniz: *https://jhss-khazar.org/*

Sizi *Khazar Journal of Humanities and Social Sciences* jurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalələrinizi bizə göndərməyə dəvət edirik (hazırda üstünlük verilən sahələr: təhsil, dil, linqvistika, ədəbiyyat, beynəlxalq münasibətlər və siyasi elmlər).

Daha ətraflı məlumat üçün: *https://jhss-khazar.org/author-guidelines/*

The new special issue (Vol. 24, Special Issue № 4, 2021) of *Khazar Journal of Humanities and Social Sciences* has been released. In this special issue, Prof. Academician Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees published an article-book titled "My Karabakh or The Karabakh Knot". In the article-book published in English, H. Isakhanli talks about his personal memories of Karabakh, the history and the culture of Karabakh, historical events that led to the Nagorno-Karabakh conflict, consequences of the First and Second Karabakh War, its influence to the Caucasus and his recommendations on the future development of the region.

You can read the full article here: *https://jhss-khazar.org/*

We encourage you to read KJHSS, cite from its publications, and submit your quality and original research papers for possible publication (the priority fields for now are Education, Language/ Linguistics/Literature, IR &Political Science).

For more information about submissions, *please,see:https://jhss-khazar.org/author-guidelines/*





POTENSİAL MƏKTƏB DİREKTORLARI KURSUNUN MÜDAVİMLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ

PARTICIPANTS OF POTENTIAL SCHOOL PRINCIPALS COURSE AT DUNYA SCHOOL

Martın 4-də Xəzər Universitetinin təşkilatçılığı ilə Potensial Məktəb Direktorları kursunun müdavimlərinin "Dünya" Məktəbinin direktor və müəllim heyəti ilə görüşü keçirildi.

Görüşdə "Dünya" məktəbinin direktoru və kursun məzunu olmuş Nazpəri Bayramova məktəbin inkişaf yolundan, əldə etdiyi uğurlardan, təhsil sistemində istifadə etdikləri metod və üsullardan, şagirdlərin fəallığından və məktəbin 20 illik təcrübəsindən danışdı. Müdavimlər ilə diskussiya təşkil olundu və suallara cavab verildi. Onlar sinif otaqları, laboratoriyalar, şagirdlərin əl işləri olan guşələrlə tanış oldular.

On March 4, Khazar University hosted a meeting of the Potential School Principals course participants with the principal and staff members of Dunya School.

At the meeting, Nazpari Bayramova, Director of Dunya School and the graduate of the course, spoke about the school's development path, its successes, methods and techniques used in the education system, student activity and the school's 20 years of experience. Discussions were held with the participants and questions were answered. They got acquainted with classrooms, laboratories, corners with students' handicrafts.



Görüş çay süfrəsi ətrafında davam etdi. Təhsil, təhsilin idarə olunması və məktəblərdəki problemlər, onların həll yolları mövzusunda müzakirələr aparıldı.

Qeyd edək ki, 2022-ci il yanvarın 10-dan Xəzər Universitetinin təşkilatçılığı ilə Potensial Məktəb direktorları kursunun növbəti təlimləri keçirilir. Kurs müddətində təhsilin idarə olunması, maliyyə, statistika, qanunvericilik, təhsil hüququ, məntiq və İKT fənləri üzrə təlimlər keçirilməkdədir.

Potensial məktəb direktorları kursu 2014-cü ildən fəaliyyətə başlamış və bir çox məzunları direktor, direktor müavini təyin olunmuşdur.







The meeting continued around the tea table. Discussions were held on education, education management and problems in schools, and their solutions. It should be noted that the next trainings of the Potential School Principals Course have been held by Khazar University since January 10, 2022. Trainings on education management, finance, statistics, legislation, education law, logic and ICT are being conducted during the course.

The course of potential school principals was launched in 2014, and many graduates have been appointed principals and deputy principals.



İSTANBUL AYDIN UNİVERSİTETİNİN RƏHBƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Martın 10-da İstanbul Aydın Universitetinin İdarə Heyətinin sədri Doç. Dr. Mustafa Aydın və əməkdaşları Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və əməkdaşlar iştirak edirdilər.

Görüş zamanı universitetlərlər arasında əlaqələrin inkişaf etdirilməsi barədə müzakirələr aparıldı və hədiyyələr təqdim olundu.



HEAD OF ISTANBUL AYDIN UNIVERSITY AT KHAZAR UNIVERSITY

On March 10, President of the Board of Istanbul Aydin University, Assoc. Dr. Mustafa Aydin visited Khazar University and met with the university's founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli. The meeting was attended by Associate Professor Irada Khalilova, Rector of Khazar University, Alovsat Amirbayli, Public Relations and Media Director and staff members.

During the meeting, discussions were held on the development of relations between the universities.

"XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

Azerbaycan Cumhuriyeti
Hazar Üniversitesi
Kurucu Başkanı, Prof.Dr.Hamlet İsahanlı

Krymetli Dostum Prof.Dr. Hamlet İsahanlı,

Kökte ve ruhta bir olduğumuz kardeş toprağı Azerbaycan`da geçirdiğimiz zaman dilimi içerisinde, her gidiş ve dönüşte yaşadığımız o sıcaklık duygusunu bir kez daha solukladık. Koca çınar, usta kalem, istiklalın susmayan çığlığı, "Halk Şairi" Bahtiyar Vahapzade`nin "Bir millet, iki devlet; aynı arzu, ayni niyet!" mısralarıyla tarif ettiği yoğun duygudaşlığı yeniden tattık! Bir yurttan bir yurda dönerken yine dostluk, birlik gönüldaşlık duyguları ile dolduk; kadim birliğimizden ve kardeşliğimizden aldığımız manevi gücü iliklerimize kadar hissettik. "Bir ananın iki oğlu, bir ağacın iki kolu. O da ulu, bu da ulu! Azerbaycan, Türkiye..." diyerek gönüllerimizdekini okuyan Vahapzade`nin zaman ve mekan ötesi avazına verilebilecek en güzel sesin, nesillerimizin eğitimi adına hayata geçirdiğimiz iş birlikleri olacağına inanıyorum. Bu vesileyle şahsıma ve beraberimdeki çalışma arkadaşlarıma göstermiş olduğunuz içtenlik ve samimiyet için şükranlarımı sunuyor, bizleri birer misafir değil ev sahibi gibi ağırladığınız için en kalbi teşekkürlerimi sunuyorum.

Sevgi ve Saygılarımla,

Doc.Dr.Mustafa AYDIN
EURAS & EURIE Başkanı
İAÜ Mütevelli Heyet Başkanı



Doc.Dr.Mustafa Aydın Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyliyə də eyni məzmunda təşəkkür məktubu göndərmişdir.

LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

On March 10, President of the Board of Istanbul Aydin University, Assoc. Dr. Mustafa Aydin met with Khazar University's founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, and discussed the development of relations between the universities.

After returning to Turkey, Assoc. Dr. Mustafa Aydin sent a letter of thanks to Professor, Academician Hamlet Isakhanli.

In his letter, the head of Aydin University expressed his deep gratitude for the warm welcome by Khazar University and expressed confidence that academic and scientific cooperation between the two universities would continue to grow.

Doc.Dr.Mustafa Aydın sent a letter of thanks to Khazar University Rector Associate Professor Irada Khalilova and Public Relations and Media Director Alovsat Amirbeyli as well.

PSİXOLOGİYA DEPARTAMENTİNDƏ KİTAB TƏQDİMATI

BOOK PRESENTATION CEREMONY IN PSYCHOLOGY DEPARTMENT



Martın 11-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın "Terapevtik ünsiyyətin əsasları" kitabının təqdimatı keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi, əməkdaşları və tələbələri, müxtəlif psixoloji xidmət mərkəzlərinin rəhbərləri, həmçinin universitetin psixologiya ixtisasının şəhid tələbəsi Atamәli Musayevin valideyni iştirak edirdilər.

Tədbiri universitetin rektoru dosent İradə Xəlilova açaraq, kitabın ixtisas tələbələri üçün əhəmiyyətli olduğunu qeyd etdi. Mələk Kərimova kitabın hansı ehtiyacdan yazılması haqqında fikirlərini bildirərək, məzmunu və fəsilləri haqqında geniş məlumat verdi. Sonra rəyçilər – dosentlər Ceyhun Alıyev və Ləman Verdiyeva kitabın praktik məlumatlarla zəngin olmasından və yerli psixologiya sahəsində ədəbiyyat azlığından da bəhs edərək, kitabın tələbələrə faydalı olacağını qeyd etdilər. Tədbirdə psixologiya sahəsində dərs vəsaitləri haqqında müzakirə aparıldı.

Mələk Kərimova şəhid tələbə Atamәli Musayev haqqında xatirələrini bölüşərək, valideynini tədbirə gəldiyi üçün təşəkkürünü bildirdi.

Sonda kiçik bir yarış təşkil edilərək, tələbələrə kitablar hədiyyə olundu.

Tədbiri aşağıdaki link vasitəsilə izləmək olar:

On March 11, the book entitled "Fundamentals of Therapeutic Communication" by Malak Karimova, Coordinator of Khazar University's Department of Psychology, was presented. The event was attended by Khazar University administration, staff, and students, heads of various psychological service centers, and the parents of Atamali Musayev, the martyred psychology student of the university.

Opening the event, the rector of the university, associate professor Irada Khalilova, noted the importance of the book for students. Expressing her opinion on the need to write the book, Malak Karimova gave detailed information about the content and chapters.

Then the reviewers - associate professors Jeyhun Aliyev and Laman Verdiyeva spoke about the book's being rich in practical information and the lack of literature in the field of psychology in our country, noting that the book will be useful for students. Textbooks on psychology were discussed at the event.

Malak Karimova shared her memories of the martyred student Atamali Musayev and thanked his parents for coming to the event. At the end, a small competition was organized and books were presented to the students. The event can be watched via the following link:

https://www.youtube.com/watch?v=LrjidFZjLGg





POTENSİAL MƏKTƏB DİREKTORLARI KURSUNUN TƏLİMLƏRİ DAVAM EDİR

TRAININGS FOR THE POTENTIAL SCHOOL PRINCIPALS COURSE CONTINUE

2022-ci il yanvar ayının 10-dan etibarən Xəzər Universitetində Potensial Məktəb Direktorları kursunun yeni təlimləri başlamışdır.

Təhsilin idarə olunması, maliyyə, statistika, qanunvericilik, təhsil hüququ, məntiq və IKT fənləri üzrə təlimlər universitetin peşəkar müəllimləri tərəfindən tədris edilir.

Hibrid şəkildə keçirilən təlimlərə Bakı şəhəri, digər şəhər və rayonlardan müdavimlər qatılıb.

Qeyd edək ki, təlimlər aprel ayının sonuna qədər davam edəcəkdir.

On January 10, 2022, new trainings for the Potential School Principals course began at Khazar University.

Trainings on education management, finance, statistics, legislation, education law, logic and ICT are taught by professional teachers of the university.

Participants from Baku, other cities and regions attended the hybrid trainings.



KİM-DƏ TƏLİM

2022-ci il martın 11-də Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli doktorant tələbələrə Microsoft Teams vasitəsilə kitabxananın e-resursları haqqında təlim keçdi. Təlimdə kitabxananın abunə olduğu məlumat bazaları, elektron jurnallar, elektron kataloq, elektron arxiv haqqında məlumat verildi.

TRAINING AT LIC

On March 11, 2022, Aytaj Misgarli, Deputy Director of the Library Information Center (LIC), organized training for doctoral students on library e-resources through Microsoft Teams.The training provided information about the library's subscribed databases, electronic journals, electronic catalog, electronic archive.

COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN MÜDİRİ RÖVŞƏN ABBASOVUN FLORİDA DÖVLƏT UNİVERSİTETİNDƏ QONAQ PROFESSOR KİMİ FƏALİYYƏTİ BAŞA ÇATMIŞDIR

ROVSHAN ABBASOV, HEAD OF THE DEPARTMENT OF GEOGRAPHY AND ENVIRONMENT, ENDS HIS ACTIVITY AS A VISITING PROFESSOR AT FLORIDA STATE UNIVERSITY



Xəbər verdiyimiz kimi (*https://khazar.org/az/news/5756*) Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov İREX (Beynəlxalq Tədqiqat və Mübadilə Şurası) tərəfindən təşkil olunan UASP (Universitet İnzibatçılığına Dəstək Proqramı) programının qalibi olaraq, 1 fevral-1 mart tarixlərində Florida Dövlət Universitetinin (ABŞ) qonaq professoru kimi fəaliyyət göstərmiş, eyni zamanda, bir sıra işgüzar görüşlər keçirmişdir.

As we reported (*https://khazar.org/en/news/5756*), as the winner of the UASP (University Administration Support Program) program organized by IREX (International Research and Exchange Council), Rovshan Abbasov, Head of the Department of Geography and the Environment at Khazar University, spent a month - from February 1 to March 1 at Florida State University (USA) serving as a visiting professor and held a number of meetings there.

***

Fevral ayının 10-da Rövşən Abbasov universitetin Akademik Heyət inkişafı və Təkmilləşdirmə üzrə Vitse - prezidenti xanım Janet Kistner və Strategiya və Analitika üzrə Yardımçı Provost, Dr. Rick Burnette ilə görüşmüşdür. Bu görüşlərdə müzakirə olunan əsas məsələlər yeni proqramların yaradılması, keyfiyyət təminatı, qrantların idarə olunması, tədqiqat üzrə fundraising, tədqiqatların təşkil və idarə olunması kimi məsələlər müzakirə olunmuşdur. Rövşən Abbasov Xəzər Univeristetinin strukturu və layihə idarəolunması haqqında məlumat vermişdir.

On February 10, Rovshan Abbasov met with Janet Kistner, Vice President for Academic Staff Development and Improvement, and Dr. Rick Burnette, Assistant Provost for Strategy and Analytics. The main issues discussed at these meetings were the creation of new programs, quality assurance, grant management, research fundraising, research organization and management. Rovshan Abbasov provided information on the structure and project management of Khazar University.



***





Fevralın 15-də Rövşən Abbasov FSU İnstitutsional Tədqiqat Mərkəzinin Direktoru James Hunt və Andrew Brady ilə görüşmüşdür. Bu görüşdə FSU-nun əsas inkişaf istiqamətləri, tələbələr və tədqiqat işlərinin statistik məlumatları müzakirə olunmuşdur.

Elə həmin gün Rövşən Abbasov Tədqiqatların Kommersiyalaşdırılması Mərkəzinin direktoru Brent Edington ilə görüşmüşdür. Cənab Edington FSU-da alınan tədqiqat nəticələrinin kommersiyalaşdırılması və start-upların yaradılması barədə geniş məlumat vermişdir.

Fevralın 16-da ilk görüş FSU-nun Tədqiqat üzrə vitse-prezidenti Kerry Peluso və Sponsorlaşdırılmış Tədqiqat Qrupunun lideri Pamela Ray ilə baş tutmuşdur. Kerry Peluso FSU-nun aldığı əsas qrantlar, mükafatlar və onların mənbələri, yazılan layihə təklifləri və onların idarə olunması barədə məlumat vermis, alınan qrantların işlənilməsində layihə heyətlərinin rolundan danışmışdır. Pamela Ray isə tədqiqatların sponsorlaşdırılması və bu istiqamətdə qazanılan uğurlardan söz açmışdır.

Daha sonra Rövşən Abbasov Tədqiqatın İnkişaf Mərkəzinin direktoru Carolyn Bradley tərəfindən təşkil olunan "Tədqiqat üçün maliyyə resurslarını necə tapmalı" adlı seminarda iştirak etmişdir. Carolyn Bradley bu vebinarda əsas qrant imkanları barədə universitet işçilərinin məlumatlandırılması üçün yaradılan "Pivot" sistemi barədə geniş məlumat vermişdir. Bu sistemdə hər bir universitet əməkdaşı öz profilini yaradır və "Mənim maliyyə mənbələrim" adlı informasiya şəbəkəsinə daxil olur. Bu informasiya şəbəkəsi hər bir profil sahibini uyğun məlumatlarla təmin edir.

On February 15, Rovshan Abbasov met with James Hunt and Andrew Brady, Director of the FSU Institutional Research Center. The main directions of FSU development, statistics of students and research work were discussed at this meeting. On the same day, Rovshan Abbasov met with Brent Edington, Director of the Research Commercialization Center. Mr. Edington provided extensive information about the commercialization of FSU research results and the creation of start-ups.

The first meeting on 16 February took place with Kerry Peluso, Vice President of Research, and Pamela Ray, Leader of the Sponsored Research Group at FSU. Kerry Peluso gave information on the main grants received by FSU, awards and their sources, written project proposals and their management, and the role of project staff in the development of the received grants. Pamela Ray spoke about research sponsorship and successes in this area.

Then Rovshan Abbasov participated in a seminar on "How to find financial resources for research" organized by Carolyn Bradley, Director of the Research Development Center. In this webinar, Carolyn Bradley spoke about the "Pivot" system, which was created to inform university staff about key grant opportunities. In this system, each university employee creates his own profile and accesses an information network called "My financial sources". This information network provides each profile owner with relevant information.

***



Fevralın 23-də Rövşən Abbasov Klinik Tədqiqatların İnkişafı ofisində yardımçı dekan Dr. Donna O'Neal, Baş Kliniki Tədqiqat müşaviri və Senior biostatistik Philippe Gaillard ilə görüşmüşdür. Görüşdə bütün istiqamətlər üzrə tədqiqatların inkişafı müzakirə olunmuşdur. Rövşən Abbasov həmsöhbətlərə Xəzər Universitetinin təcrübəsi haqqında da məlumat vermişdir.

Elə həmin gün Rövşən Abbasov Tədqiqatda İnsan Subyektlərinin Müdafiəsi ofisinin direktoru, İnstitutsional Yoxlama Şurasının sədri Howard Stone ilə görüşmüşdür. Görüşdə Howard Stone Rövşən Abbasovun koordinatorluğu ilə həyata keçirilən Toksik Məntəqələrin İdentifikasiyası layihəsi ilə maraqlanmış və bu istiqamətdə həyata keçirilən fəaliyyətlərlə tanış olmuşdur. Öz növbəsində, Stone Rövşən Abbasova tədiqat zamanı insan subyektlərinə münasibətdə institutsional yoxlama etikası şurasının işi haqqında məlumat vetmişdir.

Fevralın 28-də Rövşən Abbasov "Kollbrativ FloRDA: Su" adlı online görüşdə Azərbaycanda su ehtiyatlarının idarə olunması üzrə qısa xülasə ilə çıxış etmişdir.

Martın 1-də Rövşən Abbasov Florida Dövlət Universitetindən Vaşinqton şəhərinə gəlmiş və burada təşkil olunan "Universitetdə Tədqiqat İnzibatçılığı" adlı konfransda "Xəzər Universiteti: Daşınan bilik və təcrübələr" adlı mövzu ilə çıxış etmişdir.

Beləliklə də, Rövşən Abbasovun Florida Dövlət Universitetində qonaq professor kimi fəaliyyəti başa çatmışdır.

On February 23, Rovshan Abbasov met with Dr. Donna O'Neal, Assistant Dean at Clinical Research Advancement Office, Joe Frascella, Chief Clinical Research Officer, and Philippe Gaillard, Senior Biostatistician. The development of research in all areas was discussed at the meeting. Rovshan Abbasov informed them about the experience of Khazar University.

On the same day, Rovshan Abbasov met with Howard Stone, Director of the Office for Human Subjects Protection and Chairman of the Institutional Review Board Committee. During the meeting, Howard Stone was interested in the Toxic Site Identification project coordinated by Rovshan Abbasov and got acquainted with the activities carried out in this direction. Stone informed Rovshan Abbasova about the work of the Council on Institutional Review Ethics in relation to human subjects during the study.

On February 28, Rovshan Abbasov made a brief summary of water resources management in Azerbaijan at an online meeting entitled "Collaborative FloRDA: Water".

On March 1, Rovshan Abbasov arrived in Washington from Florida State University and spoke at the conference entitled "University Research Administration" on "Khazar University: Transferrable knowledge and experiences."

Rovshan Abbasov completed his activity as a visiting professor at Florida State University.

FLORİDA TƏƏSSÜRATLARIM


Rövşən Abbasov

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri

MY FLORIDA IMPRESSIONS

Rovshan Abbasov,

Head of the Department of Geography and Environment, Khazar University



IREX-in UASP proqramı ilə fevral ayı ərzində FSU-da qonaq professor kimi çalışmış Rövşən Abbasovun qeydlərini təqdim edirik.

Beynəlxalq Tədqiqat və Mübadilə Şurasının (IREX) Universitet İnzibatçılığına Dəstək Proqrqmı (UASP) ilə Amerikaya səfər edən hər kəs bura nə üçün gəldiyini yaxşı bilir. Ərizə formasını dolduran zaman biz çoxlu ideyalar təqdim edirik. Lakin bilet alıb günləri sayanda "mən Ameirkaya nə üçün gedirəm?" sualı yenidən gündəmə gəlir. Bu ölkə dərin bir okean kimidir və burada nə etməli olacağını bilmək çox vacibdir. Çünki Amerikada çox şeylər var ki, sən onların hamısını görə, duya bilməzsən.

Getməyimə cəmi bir neçə həftə qalmış Florida Dövlət Univeristetində (FSU) qonaq olacağımı bildim. Həm sevinc, həm də bir qədər həyəcan ortaya gəldi. Çünki Florida iqliminə görə Azərbaycandan çox fəqrli bir yerdir. Buranın iqlimi daha isti və rütubətlidir. Sonradan başa düşdüm ki, bu fərq təkcə iqlimdə deyil, hər bir şeydə əks olunmalıdır və düşündüyüm kimi də oldu. Mən Floridada olduğum müddətdə buranı Azərbaycanla müqayisə edir, fərqlər tapır və daha sonra eyniləşdirirdim. Amma həm Floridada, həm də Azərbaycanda bir oxşarlıq var: O da insanlardır! Buradakı insanlar çox istiqanlıdır və bir az söhbət edəndən sonra onlara qanın qaynayır və bütün rəsmilik aradan qalxır.

Əlbəttə ki, FSU-da qaldığım müddətdə mənim bütün görüşlərimin təşkilatçısı olan Kommunikasiya

We present the notes of Rovshan Abbasov, who spent a month at FSU with the IREX UASP program in February as a visiting professor.

Anyone who has travelled to the United States through IREX's UASP program knows why they came here. We have a lot of ideas when filling out the application form. However, counting the days before the trip, "Why am I going to America?" the question comes up again. This country is like a deep and big ocean, and the person who goes there tries to know in advance what he will do in this ocean and makes plans accordingly. However, when you come to America, you see so many different things that the plans change immediately, and you must draw a new plan to discover America.

Just a few weeks before my departure, I learned that I would be visiting Florida State University. There was both joy and some excitement. Because Florida has a very different climate from Azerbaijan. The climate here is warmer and more humid. Later I realized that this difference is reflected not only in the climate, but in everything, and it happened as I thought. During my stay in Florida, I compared this country with Azerbaijan, found differences and then identified them. But there is a similarity in both Florida and Azerbaijan: They are people too! The people here are very warm, and after a short conversation, the formality between them disappears and new friendly wires are formed.

Special thanks to CCI, who hosted me during my stay at FSU and organized all my meetings. CCI has developed an interesting program to meet different people during my entire visit. As part of this program,

və İnformasiya Kollecinə (CCI) ayrıca təşəkkür etmək lazımdır. CCI bütün qonaq olacağım dövrdə məni müxtəlif insanlarla görüşdürmək üçün maraqlı bir proqram hazırlamışdı. Bu proqram çərçivəsində mən FSU-da tədqiqatın idarə olunmasına məsul olan və bu tədqiqatları aparan müxtəlif insanlarla görüşdüm. Bütün görüşlər çox yadda qalan, həm də maraqlı oldu. Əksər hallarda görüş üçün ayrılmış vaxt başa çatsa da, biz bunu hiss etmir və daha çox söhbət edirdik. Sizə elə gəlməsin ki, biz yalnız rəsmi olaraq tədqiqatdan danışırdıq. Xeyr, biz həm də bir-birimizlə öz həyat təcrübələrimizi, problemlərimizi bölüşür, dünyanın iki müxtəlif hissələrində yaşayan tədqiqatçılar kimi gələcək əlaqələrimizin necə möhkəm olmasının əsaslarını qoyurduq. Məsələn, Stephen McDowell, Leila və Elaine ilə olan bütün görüşlərimiz qeyri-rəsmi idi və bu qeyri-rəsmiliyin özündə bir dostluq və səmimiyyət telləri vardı.

Mənim qonaq olduğum CCI-də çalışan əməkdaşlarla ilk gündən sıx ünsiyyət qurdum. Stephen, Leila, Elaine ilə daim məktublaşır və mənim fəaliyyətimi koordinasiya edirdik.

Məni Talahhassee`yə gələndə hava limanında qarşılayıb, elə hava limanındada da yola salan bu kollecin dekanı Stephen McDowell oldu. Talahhassee`yə gələn kimi o öz telefon nömrəsini mənə verdi və dedi ki, hər hansı bir problem olarsa, birbaşa ona istədiyim vaxt zəng edim. Bir çox görüş yerləri uzaqda olduğu üçün Stephen məni öz maşını ilə bu görüşlərə aparır və orada məni gözləyirdi. Bir dəfə maşın kirayə edib, Saint George və Apalachicola şəhərlərinə getmək istəyirdim. Lakin maşın kirayəsində problem yarandı və gedə bilmədim. Mən Stephen zəng edib, ona bu barədə dedim. Stephen dərhal öz maşını ilə gəlib məni həmin şəhərlərə apardı və bütün günü biz birlikdə müxtəlif yerlərdə gəzdik. Saint George adasında diqqətimi çəkən əsas şey şəhərdəki evlərin svaylar üzərində qurulması oldu. Burada tez-tez baş verən Hurrikan qasırğası ərazini uzun müddətə daşqın altında qoyur və buna görə də, yerli insanlar öz evlərini hündürə qaldırmalı olurlar.

Axşam isə gəzintimizi dəniz yeməkləri ilə gözəl bir restoranda yekunlaşdırdıq. Saint George adasına səfər zamanı yolda Stephen`in dostu və adaşı Stephen`in evinə getdik. Onun da evi svaylar üzərində qurulmuşdu və bu, dediyim kimi, Hurrikan`dan qorunmaq üçün belə edilmişdi. O, bizə öz evi haqqında maraqlı məlumatlar verdi. Onun evi tamamilə günəş enerjisi ilə təmin

I met with various people in charge of research management at FSU and those who conduct this research. All the meetings were very memorable and interesting. In most cases, even though the time allotted for the meeting was over, we didn't feel it and talked more. Don't think that we were only officially talking about research. No, we also share our life experiences and problems with each other, and as researchers living in two different parts of the world, we lay the foundation for how strong our future relationship will be. For example, all our meetings with Steve, Leila, and Elaine were friendly, and this informality had its own threads of friendship and sincerity.

From day one, I began to feel part of the CCI. From the first day, I was in close contact with the staff of this college. Steve, Leila, Elaine was in constant correspondence, and we coordinated my activities. Later, when I met these people personally, I realized that what awaits me is not only an exchange of ideas within the program, but also a very interesting cultural life.

On March 11-12, 2022, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu was a guest of the live broadcast of the program "Səhər" ("Morning") on ATV channel of Azerbaijan. The program discussed the historical depth of the Turkish-Azerbaijani brotherhood and its importance for the new world order. In his speech on Azerbaijan's Khazar TV and Turkey's BNM Turkish television, Telman Nusratoglu also spoke in detail about the Russia-Ukraine war and its effects.



"İQLİM DƏYİŞİKLİYİNƏ DAİR MƏSULİYYƏT" LAYİHƏSİNİN (ARCC) YEKUN KONFRANSI

THE FINAL CONFERENCE OF THE ASSUMING RESPONSIBILITY FOR CLIMATE CHANGE (ARCC) PROJECT WAS HELD

Martın 15-də "Dünya" məktəbində Xəzər Universitetinin tərəfdaş olduğu Britaniya Konsulluğunun Yaradıcı Komissiyalar Proqramı tərəfindən dəstəklənən Assuming Responsibility for Climate Change (arCc) layihəsi çərşivəsində "İqlim Dəyişikliyinə Dair Məsuliyyət" adlı yekun konfransı keçirildi.

Konfrans Xəzər Universiteti İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın giriş sözü ilə başladı.O, iştirakçıları və qonaq natiqləri salamladı. Raziyə İsayeva layihə və bu layihə çərçivəsində indiyədək təşkil olunmuş konfranslar haqqında məlumat verdi.

On March 15, Dunya School hosted the final conference on " Assuming Responsibility for Climate Change " as part of the arCc project, supported by the Creative Commissions Program of the British Council in partnership with Khazar University.

The conference began with an introductory speech by Ms. Raziya Isayeva, Director of Development. She greeted participants and guest speakers. Raziya Isayeva informed the audience about the project and the conferences organized so far within this project.



Sonra Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin missiya rəhbərinin müavini Emma Robinson iqlim dəyişikliyi, onun yaratdığı fəsadlar haqqında danışdı. O, hərkəsi fərd olaraq təbiəti, planeti qorumağa çağırdı.

Konfransda Britaniya Konsulluğunun Azərbaycandakı direktor müavini Nigar Bəyimova, Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Ernst and Young İqlim Dəyişiklikləri və Davamlılıq Xidmətinin nümayəndəsi Ceyhun Hacıyev, Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfir Gülsarə Qasımova qonaq natiq qismində çıxış etdilər. Onlar iqlim dəyişikliyi və onun nəticələri haqqında təqdimat edərək, müxtəlif həll yollarından danışdılar. Daha sonra sual-cavab sessiyası baş tutdu.

Konfransın 2-ci hissəsi layihə çərçivəsində təşkil olunmuş yarışmaya həsr olundu. Xəzər Universiteti, "Dünya" məktəbi və 132-134 nömrəli təhsil kompleksinin tələbələri 1 dəqiqəlik çıxışlarında posterlərini təqdim etdilər. Sonda ilk 3 yeri tutanlar münsiflər heyəti tərəfindən mükafatlandırıldı.

Qeyd edək ki, 13 ölkə və 3 qitəni əhatə edən layihə həyat tərzinin iqlim dəyişikliyi üzərindəki təsirini əks etdirmək, fərdi məsuliyyəti və onun vacibliyini anlamaq, yerli səviyyədə məlumatlandırma vasitələrilə (vebinarlar, tədbirlər, müsabiqələr) hərəkətə keçmək üçün fərdin məsuliyyətini dərk etməyinin yollarını müəyyənləşdirməyə kömək etmək məqsədilə həyata keçirilir.

Then Ms. Emma Robinson, Deputy Head of Mission, British Embassy in Azerbaijan (TBD), spoke about climate change and its consequences. She called on everyone to protect nature and the planet as an individual.

Nigar Baimova, Deputy Director of the British Council in Azerbaijan, Rovshan Abbasov, Head of the Geography and Environment Department at Khazar University, Jeyhun Hajiyev, Representative of the Ernst and Young Climate Change and Sustainability Service, and Gulsara Gasimova, Young Ambassador for Sustainable Development Goals 15 gave speech as a guest speaker of the conference. They spoke about climate change and its consequences, and various solutions. Then a question and answer session took place.

The second part of the conference was dedicated to the competition organized within the project. Students from Khazar University, Dunya School, and Educational Complex No. 132-134 presented their posters for one minute. In the end, the first 3 places were awarded by the jury.

The project arCc, which which covers 13 countries and 3 continents, will reflect on the impact of lifestyle on climate change, realise the importance of individual accountability, recognise the importance of individual accountability, identify ways to demonstrate awareness of own responsibility to take action through local level awareness webinars, events, and competitions.

"XƏZƏR"İN MÜƏLLİMİ PSİXOTERAPİYA TƏLİMİNDƏ
KHAZAR UNIVERSITY FACULTY MEMBER IN PSYCHOTHERAPY TRAINING

Martın 11-də Xəzər Universitetinin müəllimi və doktorantı Amerika Koqnitiv Davranış Terapiyası Assosiasiyasının təşkil etdiyi, "Sokratik sorğulama" kitabının müəllifi olan Dr. Scott Valtman tərəfindən keçirilən "Sokratik dialoq və sorğulama: praktiki strategiyalar, mümkün problemlərin öhdəsindən gəlinməsi" adlı təlimdə iştirak edərək, sertifikat almışdır. Qeyd edək ki, təlim və sertifikat Amerika Psixoloqlar Assosiasiyasının "Psixoloqların davamlı təhsili" proqramı tərəfindən dəstəklənir və tanınır.

Təlimdə psixoterapiya zamanı problemlərin ələ alınması, terapiyanın müxtəlif sual texnikaları vasitəsilə yönləndirilməsi və xüsusilə də psixoloqun məsləhət vermədən lazımi məqamları müştəriyə çatdırması halları müzakirə olunaraq, praktiki nümunələrlə nümayiş etdirilmişdir.

On March 11, Khazar University lecturer and doctoral student Nilufar Alizada participated in a training on "Socratic Dialogue and Questioning: Practical Strategies, Overcoming Potential Challenges" organized by the American Cognitive Behavioral Therapy Association and conducted by Dr. Scott Waltman, author of "Socratic Questioning" and received a certificate. Note that the training and certification are supported and recognized by the American Psychologists Association's "Continuing Education of Psychologists" program.

The training discussed and demonstrated practical examples of how to deal with problems during psychotherapy, how to direct therapy through various questioning techniques, and especially how to convey the necessary points to the client without giving advice.



"XƏZƏR"İN BAKALAVR TƏLƏBƏSİ DİM-İN "AÇIQ QAPI" GÜNÜNDƏ

KHAZAR UNIVERSITY BACHELOR'S STUDENT ATTENDS "OPEN DAY" OF SEC

Fevralın 20-də keçirilmiş magistraturaya qəbul imtahanında ən yüksək nəticə (93-98 bal) göstərən 25 bakalavr martın 4-də Dövlət İmtahan Mərkəzində (DİM) təşkil edilən "Açıq qapı" gününə dəvət edilib. Onların arasında Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin 97 bal toplamış tələbəsi Tamerlan Abdullayev (Kompüter mühəndisliyi ixtisası) də olub..

DİM-in struktur bölmələrinin rəhbərləri qəbul imtahanında yüksək nəticə göstərmiş bakalavrları təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb və digər məsələlər barəsində məlumat, tövsiyələr veriblər, bakalavrları maraqlandıran sualları cavablandırıblar.

AZƏRTAC və digər saytlar tədbir haqqında xəbər yayımlamışlar.

The highest scoring 25 bachelors (93-98 points) in undergraduate admission exams held on February 20, were invited to the "Open Day" organized on March 4 at the State Examination Center (SEC). Among them was Tamerlan Abdullayev (Computer Engineering), a student at Khazar University's School of Science and Engineering who scored 97 points.

The heads of the structural units of the SEC congratulated the bachelors who showed high results in the admission exam, wished them success in their future activities, gave information and recommendations on other issues, and answered questions of bachelors.

AZERTAC and other websites published news on the event.

https://azertag.az/xeber/Magistraturaya_qebul_imtahaninda_en_yuksek_netice_gosteren_25_bakalavr_Achiq_qapi_gunune_devet_olunub-2040299

"XƏZƏR"İN SABİQ DEPARTAMENT MÜDİRİ UNEC-DƏ BEYNƏLXALQ İQTİSAD MƏKTƏBİNİN (ISE) DİREKTORU VƏZİFƏSİNƏ TƏYİN OLUNUB



FORMER DEPARTMENT HEAD AT KHAZAR UNIVERSITY APPOINTED DIRECTOR OF INTERNATIONAL SCHOOL OF ECONOMICS (ISE) AT UNEC

Xəzər" Universitetinin sabiq departament müdiri Ramil Quluzadə UNEC-də Beynəlxalq İqtisad Məktəbinin - universitetin ingilis dilli fakültəsi olan ISE-yə direktor təyin olunub.

Ramil Quluzadə 25 iyul 1987-ci ildə Bakı şəhərində anadan olub. 2004-cü ildə 1 saylı fizika-riyaziyyat və informatika təmayüllü liseyi bitirib. 2004-2008-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ümumi İqtisadiyyat fakültəsində bakalavr təhsili alıb və fərqlənmə diplomu ilə məzun olub.

2008-2009-cu illərdə hərbi xidmətdə olub. 2016-2018-ci illərdə ABŞ-ın Massaçusets Texnologiya İnstitutunda "Biznesin idarə edilməsi" ixtisası üzrə magistr təhsili alıb.

2018-2019-cu illərdə ABŞ-da yerləşən müxtəlif texnologiya şirkətlərində əmək fəaliyyətini davam etdirib. 2020-2021-ci illərdə Xəzər Universitetinin MBA departamentinin direktoru olub.

Tehsil.biz və digər saytlar 2022-ci il martın 4-də bu barədə xəbər yayımlamışdır.

Ramil Guluzadeh, the former department head at Khazar University, has been appointed director of the International School of Economics at UNEC, the university's English-language faculty, ISE.

Ramil Guluzade was born on July 25, 1987 in Baku. In 2004 he graduated from lyceum No. 1 with a specialization in physics, mathematics and computer science. In 2004-2008 he received a bachelor's degree from the Faculty of General Economics of the Azerbaijan University of Architecture and Construction and graduated with honors.


He served in the military in 2008-2009. In 2016-2018, he received a master's degree in Business Administration from the Massachusetts Institute of Technology (USA).

In 2018-2019, he continued to work in various technology companies located in the United States. In 2020-2021, he was the director of the MBA department at Khazar University.

Tehsil.biz and other websites published news on this issue on March 4, 2022.

https://tehsil.biz/news/az/34288/MT-mzunu-UNEC-d-dekan-vzifsin-tyin-olunub

"XƏZƏR XƏBƏR"İN
AMEA NİZAMİ
ADINA
ƏDƏBİYYAT
İNSTİTUTUNDA
BÜROSU



AKADEMİK İSA HƏBİBBƏYLİNİN "MƏHƏMMƏD TAĞI SİDQİNİN HƏYATI VƏ ƏDƏBİ-MAARİFÇİ FƏALİYYƏTİ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti" kitabı nəşr olunub.


"Sənətkarın elmi pasportu-27" seriyasında çap olunan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Akif İmanlıdır.

Kitabda böyük maarifçi şair, nasir, görkəmli pedaqoq və ilk məktəb dərslikləri yaratmış, dövrünün tanınmış xalq müəllimlərindən biri Məhəmməd Tağı Sidqinin (1854-1903) həyatı və yaradıcılığından bəhs edilir.

Kitab Giriş, "Məhəmməd Tağı Sidqinin həyatı", "Yeni nəslin inkişafında rolu", "Şeir yaradıcılığı", "Nəsr əsərləri", "Mətbuatla əlaqəsi", "Pedaqoji görüşləri və dərslikləri", "Elmə xidmət" və Nəticə bölümlərindən ibarətdir.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitabın üz qabığındakı şəkil 1902-ci ildə Naxçıvan şəhərində Qurbanəli Şərifzadə tərəfindən çəkilmişdir.

ŞAHMAR ƏKBƏRZADƏYƏ HƏSR OLUNMUŞ KİTAB



AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Fidan Abdurəhmanovanın "İstiqlal arzusu ilə yaşayan şair" kitabı işıq üzü görüb. Şahmar Əkbərzadə haqqında ilk monoqrafiya olan bu əsər Ədəbiyyat İnstitutunun Elmi Şurasının 16 dekabr 2021-ci il tarixli 8 saylı iclas protokolunun qərarı ilə çap olunub.

"Vətəndaşlıq missiyasının şairanə ifadəsi" adlı ön sözün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylidir. Kitabın redaktorları yazıçı-publisist Mustafa Çəmənli və Könül Aslanova, rəyçiləri filologiya elmləri doktorları Vaqif Yusifli, Vüqar Əhməd, hüquq elmləri doktoru Habil Qurbanovdur.

128 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında çap olunub. Monoqrafiya "Özü ilə istiqlal arzusunu aparan şair", "İstiqlal şairləri və Şahmar Əkbərzadə", "Şahmar Əkbərzadənin lirikasında psixologizm", "Türk dünyasının şairi", "Qarabağdan əsən yellər", "Müstəqillik illərində Şahmar Əkbərzadənin publisistikası" bölümlərindən və istifadə olunmuş ədəbiyyat

"AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI" JURNALININ "NİZAMİ GƏNCƏVİ İLİ"NƏ HƏSR OLUNMUŞ XÜSUSİ BURAXILIŞI



Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan ədəbiyyatşünaslığı" elmi jurnalının 2021-ci ilə aid ikinci sayı nəşr olunub.


Azərbaycan ədəbiyyatını və onun tarixi inkişaf mərhələlərini araşdıran, bu mövzuda müasir və aktual tədqiqat işlərinin nəşrini həyata keçirən elmi-nəzəri nəşr olan jurnalın bu sayı "Nizami Gəncəvi İli"nə həsr olunmuş xüsusi buraxılışdır.

Xüsusi buraxılış AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, "Azərbaycan ədəbiyyatşünaslığı" elmi jurnalının baş redaktoru, akademik İsa Həbibbəylinin rus dilində "Nizamişünaslıqda dönüş mərhələsi" məqaləsi ilə açılır.

Jurnalın məsul katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, məsul redaktoru Mehparə Axundova, nəşriyyat redaktoru Töhfə Talıbovadır.

"Elm və təhsil nəşriyyat və poliqrafiya" MMC-də çap olunan jurnalın bu nömrəsində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş elmi sessiyanın materialları toplanıb.

"Nizami Gəncəvi İli - 2021" başlığında "Nizami Gəncəvinin şəxsiyyəti və sənəti", "Nizami Gəncəvinin sələfləri və xələfləri", "Nizami Gəncəvi ədəbiyyatşünaslıqda və sənətdə" bölümlərinə aid məqalələr yer alıb. "Xronika-2021" rubrikasında il ərzində Ədəbiyyat İnstitutunda Nizami Gəncəviyə həsr olunmuş tədbirlərin xronikası verilib. Həmçinin "Nizami Gəncəvi İli"nə aid nəşrlərin və mükafatların da siyahısı təqdim olunub.



"FİLOLOGİYA VƏ SƏNƏTŞÜNASLIQ" JURNALININ NÖVBƏTİ SAYI

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin elmi jurnalı olan "Filologiya və sənətşünaslıq" dərgisinin 2021-ci ilə aid ikinci sayı nəşr olunub. Jurnalın təsisçisi Azərbaycan Milli Elmlər Akademiyasıdır və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 30.05.2019-cu ildə qeydiyyata alınıb. Jurnal 2019-cu ilə qədər "Xəbərlər" (Humanitar elmlər seriyası) adı ilə çap olunub.

"Filologiya və sənətşünaslıq" elmi jurnalının baş redaktoru AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylidir. Jurnalın bu sayı akademik İsa Həbibbəylinin "Nizami Gəncəvinin "İsgəndərnamə"si: Azərbaycan ədəbiyyatının Şərəfnaməsi" məqaləsi ilə açılır.


Jurnalın məsul katibi Həlimə Mehdiyeva, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Maral Poladova, baş redaktorun müavini AMEA-nın müxbir üzvü Ərtegin Salamzadədir. Redaksiya heyətinə bir sıra akademiklər və AMEA-nın müxbir üzvləri daxildir.

"Elm" nəşriyyatında çap olunan jurnalın bu sayı "Ədəbiyyatşünaslıq" "Dilçilik", "Resenziya", "Yubileylər" və "Xronika" bölmələrindən ibarətdir. "Bələdçi" Azərbaycan, ingilis və rus dillərindədir. Bu sayda "Nizami Gəncəvi İli" bölümündə dörd müəllifin məqaləsi yer alıb. Əlizadə Əsgərlinin "Xilaskarlar" resenziyası isə professor Qəzənfər Paşayevin eyniadlı kitabından bəhs edir.

"Filologiya və sənətşünaslıq" jurnalının beynəlxalq redaksiya heyətinə Türkiyə, Rusiya, Belarus, Polşa və Gürcüstanın alimləri daxildir.

Jurnalda humanitar elmlər istiqaməti üzrə ədəbiyyatşünaslıq, Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi, müqayisəli ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik, sənətşünaslıq, mətbuat tarixi və publisistika sahələri üzrə elmi-tədqiqat əsərləri nəşr olunur.

"MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ" JURNALININ YENİ SAYI



Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının növbəti (№2, 2021) sayı nəşr olunub. Toplu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərin siyahısına daxildir.

"Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının baş redaktoru AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəylidir. Jurnal akademik İsa Həbibbəylinin "Yunus Əmrənin sənət dünyası" məqaləsi ilə açılır. Bu sayın "Türk xalqları ədəbiyyatı", "Slavyan xalqları ədəbiyyatı", "Avropa və Amerika ədəbiyyatı", "Asiya və Afrika xalqları ədəbiyyatı", "Müqayisəli ədəbiyyatşünaslığın nəzəri məsələləri" bölümlərində müxtəlif elmi məqalələr işıq üzü görüb. "Bələdçi" Azərbaycan, ingilis və rus dillərindədir.

Jurnalın redaksiya heyətinə Azərbaycan, Türkiyə, Rusiya, Çin, Özbəkistan, Bolqarıstan, Qırğızıstan, Macarıstan, Çexiya, Başqırdıstan, Tatarıstan, Cənubi Koreya, Qazaxıstan, Türkmənistan, Ukrayna və Polşanın alimləri daxildir.

Qeyd edək ki, "Müqayisəli ədəbiyyatşünaslıq" jurnalı "Index Copernicus", "Asos indeks", "İdealonline", "CiteFactor", "Academia.edu", "ResearchGate", "Internet Archive" beynəlxalq indeksləmə sistemlərinə daxildir.

"POETİKA.İZM" JURNALI ÇAP OLUNUB



Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Poetika.izm" elmi jurnalının növbəti (2021, № 2) sayı nəşr olunub. Jurnal AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 04 dekabr 2013-cü il tarixli 7 saylı qərarı ilə Ədliyyə Nazirliyindən verilmiş 26 noyabr 2013-cü il tarixli, 3821 saylı şəhadətnamə əsasında təsis edilmişdir.

"Poetika.izm" elmi jurnalının baş redaktoru AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylidir. Bu nömrə akademik İsa Həbibbəylinin "Satira nəzəriyyəsinə yenidən baxış" məqaləsi ilə başlayır.

Jurnalın baş redaktor müavini filologiya elmləri doktoru, professor Tahirə Məmməd, məsul katibi filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubova, məsul redaktoru isə Ülkər Hüseynovadır.

Jurnal ədəbiyyatın mahiyyətini, qanunlarını, kateqoriyalarını, kəmiyyət və keyfiyyət göstəricilərini, məqsəd və funksiyasını, ədəbi dəyər məsələsini, ədəbi əsərin ərsəyə gəlmə şərtlərini mövzu olaraq seçən və işləyən ədəbiyyat nəzəriyyəsinə dair müxtəlif səpkili məqalə və araşdırmalara üstünlük verir.

"Elm və təhsil" nəşriyyatında çap olunan jurnalın bu sayı "İnterdisiplinar və multidisiplinar əlaqə", "Ədəbi təhlil. Mətn poetikası", "Janr, struktur, forma", "Etnopoetika", "Tarixi poetika", "İZM", "Tərcümə", "Resenziya", "Yubiley" bölmələrindən ibarətdir. "Poetika.izm"in redaksiya heyətinə Azərbaycan, İtaliya, Latviya, Yaponiya, Polşa, Türkiyə, Bosniyanın alimləri daxildir.

Qeyd edək ki, "Poetika.izm" jurnalı "ResearchGate", "Open Academic Journals Index", "Internet Archive" beynəlxalq indeksləmə sistemlərinə daxildir.

Gülnar Səma
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
İctimaiyyətlə əlaqələr şöbəsi



Politecnico di Torino

GÖZLƏNİLMƏZ VƏZİYYƏTLƏRDƏN NECƏ ÇIXMAĞI ÖYRƏNMƏK İMKANI

OPPORTUNITY TO LEARN HOW TO DEAL WITH UNEXPECTED SITUATIONS

Ciao tutti! Hər kəsə salam!

Mən Fariz Pirmatov Təbiət elmləri və mühəndislik fakültəsinin 4-cü kurs Komputer elmləri ixtisası tələbəsiyəm. Hazırda İtaliyada Erasmus+ mübadilə semestrini keçirirəm.

Bu bloqda Erasmus mübadilə təcrübəmi sizinlə bölüşmək istəyirəm. QS Universitet reytinqində dünyanın texniki universitetləri arasında 39-cu yerdə olan, mühəndislik və memarlıq üzrə Avropanın ən yaxşı dövlət universitetlərindən biri Politecnico di Torino - da təhsil almaq şansım oldu.

Turin İtaliyanın şimal-qərbində yerləşir və ölkənin ilk paytaxtı olub. Çoxsaylı parkları və hər iki tərəfi ağaclarla örtülmüş prospektləri sayəsində Avropanın ekoloji cəhətdən ən təmiz şəhərlərindən biri hesab olunur. Şəhərin memarlığı məni heyrətə gətirir hər yerdə köhnə üslublu kilsələr və evlər. Turində ziyarət edilməli çoxlu mədəniyyət nümunələri var. Onların arasında Mole Antonelliana, Basilica di Superga, Misir Muzeyi mənim sevimlilərimdir.

Erasmus proqramı yeni təcrübələr qazanmaq üçün əla fürsətdir. Xüsusilə Erasmus tələbələri üçün mədəni fəaliyyətlər və qonaqlıqlar kimi tədbirlər təşkil edən qruplar tapmaq mümkündür. Dərslər başlamazdan əvvəl beynəlxalq tələbələr onlarla eyni vəziyyətdə olan tələbələrlə tanış olmaq üçün əla bir üsul olan oriyentasiya həftəsi keçirdilər. Hər həftə olduqca əyləncəli ESN tədbirləri var idi, xüsusilə Der Keller-də dil mübadiləsi. Mən futbolun həqiqətən

Ciao tutti! Hi everybody!

I am Fariz Pirmatov 4th course Computer Science student at Khazar University. Currently, I am doing my exchange semester in Italy. In this blog, I am going to share my Erasmus exchange experience with you. I had a chance to study at Politecnico di Torino which is one of the best public universities in Europe for engineering and architecture. In the QS University rankings, it is ranked 39th among technical universities in the world.

Turin is situated in the northwest of Italy, and it was the first capital of the country. It is considered one of the most sustainable cities in Europe, thanks to its numerous parks and tree-lined avenues. I am astonished by the architecture: old-styled churches and houses all around the city. There are a lot of cultural places to visit in Turin. Among them, Mole Antonelliana, Basilica di Superga, Egyptian Museum are my favorites.

The Erasmus program is a great opportunity for you to taste new experiences. It is easy to find groups that organize events like cultural activities and parties especially for Erasmus students. Before classes started international students had an orientation week which was a great way to meet students who are in the same situation as you. There were ESN events each week, and it was really fun. Especially language exchange at Der Keller. I am a really big fan of football and one of my favorite teams is Juventus. The club where

böyük azarkeşiyəm və sevimli komandalarımdan biri də Yuventusdur- Ronaldonun bir neçə il oynadığı klub. Turində olduğum müddətdə digər Erasmus tələbələri ilə tanış oldum və Juventus stationunda bir oyuna baxmaq şansımız oldu. Bu, heyrətamiz bir təcrübə idi.

Mənim üçün yaşayış yeri tapmaq çox çətin oldu və əgər siz Turində təhsil almağı planlaşdırırsınızsa, özünüzə 1-2 ay öncədən yaşayış yeri axtarmağınız yaxşı olar. Turin İtaliyanın Milan və Roma kimi digər şəhərləri ilə müqayisədə o qədər də baha deyil. Qiymətlər münasibdir. Əgər evdə yemək bişirməyi sevmirsinizsə, Politecnicomun yaxınlığında yaxşı yeməkxana var və siz onların tələbələr üçün təklif etdiyi yeməklərdən həzz ala bilərsiniz.

Sonda, tanımadığımız bir yerdə, komfort zonanızdan uzaqda olduğunuzda, gözlənilməz vəziyyətlərdən necə çıxmağı öyrənməkdən başqa çarəniz yoxdur. Belə vəziyyətdə, qarşılaşa biləcəyiniz hər hansı problemlə üzləşmək və həll etmək qabiliyyətinizin olduğuna inanmalısınız. Məncə bu proqramın qazandırdığı əsas keyfiyyət budur.

Görüşənədək!

Fariz Pirmatov
Xəzər Universitetinin tələbəsi

Ronaldo played for a couple of years. During my stay in Turin, I met other Erasmus students and we had a chance to watch a game in Juventus Stadium. It was an amazing experience.

For me, it was really hard to find accommodation and if you're planning to study in Turin, I suggest you search for accommodation 1-2 months in advance. Turin is not so expensive compared to other cities in Italy like Milan and Rome. The prices are affordable. If you don't like cooking at home, there is a good canteen near to the Politecnico and you can really enjoy the food that they offer for students.

In conclusion, the experience of being an exchange student at Politecnico di Torino has been amazing. When you are in an unknown place, far from your comfort zone, you have no option but to learn how to deal with unexpected situations. In these circumstances, you must believe in your capacity to face and solve any problems you might come across. I think that is the main advantage of this program.

Arrivederci!

Fariz Pirmatov
The student of Khazar University





ADU-NUN PROFESSORUNUN "XƏZƏR"DƏ MÜHAZİRƏSİ
LECTURE OF AUL PROFESSOR AT KHAZAR UNIVERSITY

Martın 10-da Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatşılığı ilə Azərbaycan Dillər Universitetinin (ADU) dilçilik üzrə professoru Jalə Qəribova tələbələr üçün "Postsovet Azərbaycanda kimlik diskursu və millət quruculuğu" mövzusunda mühazirə oxuyub. Mühazirədən əvvəl departamentin müdiri Fərid Quliyev professoru auditoriyaya təqdim etmiş, mövzunun əhəmiyyətini vurğulamışdır.

Tələbələr tərəfindən maraqla dinlənən mühazirədən sonra onların sualları cavablandırılmışdır.

On March 10, Khazar University's Department of Political Science and Philosophy hosted a lecture by Jala Garibova, Professor of Linguistics at Azerbaijan University of Languages (AUL), on "Identity Discourse and Nation-Building in Post-Soviet Azerbaijan." Before the lecture, the head of the department Farid Guliyev introduced the professor to the audience and stressed the importance of the topic.

After the lecture, which was listened to with interest by the students, questions were answered.



UNİVERSİTETDAXİLİ "XƏMSƏ" ÇEMPİONATI

THE UNIVERSITY'S "KHAMSA" CHAMPIONSHIP

Martın 15-də Xəzər Universitetində İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə "Xəmsə" Milli İntellektual Oyununun əsasnaməsinə uyğun olaraq, universitetdaxili çempionat keçirildi. Turnirdə 16 komanda, 80 tələbə öz biliklərini sınadılar.

Qrup və final mərhələlərində rəqiblərini üstələyərək 1-ci yerə "YeTeam" komandası yiyələnib. 2-ci yeri "INVICTA" komandası, 3-cü yeri "Unstoppbar" komandası, 4-cü yeri isə "Veni Vidi Vici" komandası tutub. Növbəti həftələrdə intellektual turnirlərin davamının keçirilməsi planlaşdırılır.

On March 15, Khazar University hosted "Khamsa" University Championship, organized by the Intellectual Games Club. 16 teams and 80 students tested their knowledge in the tournament.

After the group and final stages, the "YeTeam" took the first place, beating its rivals. The 2nd place was taken by "INVICTA", the 3rd place was taken by "Unstoppbar" and the 4th place was taken by "Veni Vidi Vici". It is planned to hold intellectual tournaments in the coming weeks.





TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ GÖRÜŞ

MEETING AT HISTORY AND ARCHEOLOGY DEPARTMENT

Martın 16-da AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi fond şöbəsinin böyük elmi işçisi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Tarix və tarixin tədrisi texnologiyası kafedrasının müəllimi, Dr. Laçın Mustafayev və Almaniyanın Vürzburq Universitetinin Qədim Yaxın Şərq Arxeologiyası departamentinin əməkdaşı Dr. Martin Gruber Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin əməkdaşları - dosent Roza Arazova və Dr. Söhrab Mustafayevlə görüşüb, Azərbaycanda arxeologiya elminin inkişafı, tədrisi və arxeoloji tədqiqatların aparılmasında müasir metodların tətbiqinə dair fikir mübadiləsi aparmışlar.

Qeyd edək ki, Dr. Martin Gruber bu ilin fevral-mart ayları ərzində Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda qorunan Son Tunc-Erkən Dəmir dövrünün Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji kolleksiyası ilə bağlı Gerda Henkel Stiftung fondu tərəfindən maliyyələşdirilən layihə çərçivəsində tədqiqatlar aparır.

On March 16, Dr. Lachın Mustafayev, senior research fellow of the Archeological Fund of the National History Museum of ANAS, Lecturer at the Department of General History and History Teaching Technology of the Azerbaijan State Pedagogical University and Dr. Martin Gruber, an employee of the Department of Ancient Middle East Archeology at the University of Würzburg, Germany, met with associate professor Roza Arazova and Dr. Sohrab Mustafayev at the Department of History and Archeology at Khazar University. They exchanged views on the development of archeological science in Azerbaijan, teaching and application of modern methods in conducting archeological research.

Note that Dr. Martin Gruber is conducting research on the Late Bronze-Early Iron Age archeological collection of the Khojaly-Gadabay culture preserved in the Archaeological Fund of the National History Museum of Azerbaijan in February-March this year as part of the project funded by the Gerda Henkel Stiftung Foundation.



"ABŞ-DA TƏHSİL PROQRAMLARI" MÖVZUSUNDA MƏLUMAT SESSİYASI

INFORMATION SESSION ON "STUDY ABROAD PROGRAMS IN THE US"





Martın 17-də Siyasi elmlər və fəlsəfə departamenının təşkilatçılığı ilə Amerika Təhsilli Azərbaycan Məzunları İctimai Birliyi (AAA) İdarə Heyətinin üzvləri Aygün Dadaşova və Günel Həsənova universitet tələbələri üçün "ABŞ-da təhsil proqramları" mövzusunda məlumat sessiyası keçiriblər. Tədbir departamentin müdiri Fərid Quliyevin giriş sözü ilə başlanıb və sonra ABŞ məzunları tərəfindən davam etdirilib.

Sessiya zamanı tələbələrə xaricdə təhsil proqramları barədə geniş məlumat verilib, həmçinin müvafiq sənədlərin yazılış qaydaları da izah olunub.





On March 17, Department of Political Science and Philosophy hosted an info session on "Study Abroad Programs in the US" led by AAA (US-Educated Azerbaijani Alumni Association) board members Aygun Dadashova and Gunel Hasanova. The session began with opening remarks by Farid Guliyev, Head of the Department, and was followed up by presentations by AAA board members. During the session, participants were informed about various exchange programs funded by the US government as well as best practices in writing a statement of purpose (SoP).

DEBAT KLUBU NÖVBƏTİ TƏDBİRİNİ KEÇİRDİ

THE NEXT EVENT OF DEBATE CLUB

Martın 17-də Xəzər Universitetinin Debat klubu növbəti tədbirini keçirdi. Şou-debata Xəzər Universitetinin "Drongo" və Azərbaycan Turizm və Menecment Universitetinin "Debatmooz" komandaları qatılmışdılar.

"Beynəlxalq tədbirlərin keçirilməsi ev sahibliyi edən ölkənin inkişafına müsbət təsir göstərir" mövzusunda olan debatda "Drongo" komandasını spikerlər Mustafa Həsənli, Anar İbrahimov və Mətləb Hacıyev, "Debatmooz" komandasını isə Xanım Rəcəbova, Gülşən Qubadova və Nicat Qasımlı təmsil edirdilər.

Debatdan sonra təlimi müvəffəqiyyətlə bitirən iştirakçılara sertifikat təqdim olundu.

On March 17, 2022, Khazar University's Debate Club held its next event. "Drongo" team of Khazar University and "Debatmooz" team of Azerbaijan University of Tourism and Management participated in the show debate.

In the debate on "Holding international events has a positive impact on the development of the host country" speakers Mustafa Hasanli, Anar Ibrahimov and Matlab Hajiyev represented "Drongo" team, and Khanim. Rajabova, Gulshan Gubadova and Nijat Gasimli represented "Debatmooz" team.

After the debate, participants who successfully completed the training were awarded certificates.





DÜŞÜNCƏLƏRİ YANDIRMAQ OLMUR

(esse)

Ray Bradbury. "Fahrenheit 451" romanı üzərinə*

Aysun Mahmudzadə

Xəzər Universiteti, Təbiət elmləri və mühəndisliyi fakültəsinin fizika müəllimliyi ixtisası üzrə 2-ci kurs tələbəsi

Kitabın əsas mövzusu insanların bərabər doğulub, daha sonra üstün cəhətləri ilə digərlərindən fərqlənməsidir. Məsələn, siniflərdə şagirdlərdən biri daha çox oxuyub, savadlı olsa, digərlərindən üstün sayılır. Bu üstünlüyü aradan qaldırıb, hər kəsin bərabər olması (insanlar kitab oxuyanda dünyagörüşləri artır, daha çox öyrənirlər, bu da onları digərlərindən fərqləndirir), yəni insanların söz sahibi olub digərlərini oyandırmamaları məqsədilə bütün kitabları yandırmaq vəzifəsi yanğınsöndürənlərə tapşırılır.


Bu yanğınsöndürənlər kitabları yandırmaqdan xüsusi zövq alırlar, çünki nəticədə hər kəsin bərabərləşdiyini düşünürlər. Əsərin baş qəhrəmanı Monteq də yanğınsöndürəndir. Lakin Monteq elə bir həddə gəlib çatır ki, həyatının mənasız olduğunu anlayır və kitablara sarılır. Çünki ona bu kitabların içində nə olduğu çox maraqlı gəlir. Düşünür ki, əgər bütün kitabları yandırmaq tapşırılıbsa, deməli, bu kitabların içində xüsusi nəsə var və bu maraq onu cəlb edir. Ancaq onun yaşadığı cəmiyyətdə hər kəs kitablara nifrət edir və kitab oxuyanlara "günahkar" gözü ilə baxırlar. Kitab oxuyan insanlar oxuduqca düşünürlər və düşündükləri üçün xoşbəxt ola bilmirlər. Digərlərinin fikrinə görə, kitab oxumayan insanlar xoşbəxt insanlardır, çünki heç nədən xəbərləri yoxdur. Ancaq televizora baxır və vaxtlarını boş keçirirlər.

Bir gün Monteq bir evdəki kitabları yandırmalı olur. O evdə ki, şahid olacağı hadisə Monteq`in bütün həyatına təsir edir. O evdə bir qadın kitabları uğrunda ölümü gözə alır və ölməkdən çox kitablarını xilas etməyi düşünür. Ancaq bu cəhdinin faydasız olduğunu görən qadın özünü kitabları ilə birlikdə yandırır.

Və beləcə belə bir fikir meydana çıxır: əgər bir qadın kitablar uğrunda özünü yandırmağı gözə alırsa, kitabların içində bizim bilmədiyimiz şeylər olmalıdır, çünki insan həyatı ciddiyə alınmayacaq bir şey deyil və əgər kitab üçün kimsə həyatını qurban verirsə, demək, həqiqətən orada nəsə var. Bu hadisə Monteq`ə çox təsir edir və o bir ingilis professorla gizlin danışıqlar aparır. Bu danışıqlarda profesor ona kitabların niyə insan həyatı üçün önəmli olduğunu söyləyir. Daha sonra Monteq ölümü bahasına olsa da, kitabları oxumağı qərara alır və həyat yoldaşına evdə gizlin saxladığı kitabları göstərir. Bunu görən qadın dəhşətə gəlir və: "Sən nə etmisən? Bizi öldürəcəklər!"- deyə ağlayır. Monteq ona bunu heç kimə deməməsi üçün yalvarır və bir müddət beləcə kitabları oxuyur. Ancaq həyat yoldaşı bir gün o işdə olanda, yanğınsöndürmə xidmətinə zəng edərək evində kitablar olduğunu deyir və nəticədə Monteq`ə öz kitablarını yandırmaq tapşırılır. Bu onda qəribə hisslər

*Fahrenheit üzrə 451 dərəcə kağızın alovlanıb yandığı hərarətdir.





oyadır. Lakin illərdir tanıdığını zənn etdiyi həyat yoldaşı artıq ona yadlaşmışdı.

Artıq hər şeyin sonuna gələn və həbs olunacağını bilən Monteq öz yoldaşlarından birini öldürür və qaçıb professorun evində gizlənir. Orada yaralarını sarıyır və mexaniki itin onu tapa bilməməsi üçün alkoqoldan istifadə edir. Monteq orada olduğu müddətdə professor ona çox ağıllı bir məsləhət verir; başqa yanğınsöndürən yoldaşının evinə gedib, o evdə kitab gizlətməyi Monteqə tapşırır. Monteq elə də edir. Bunu etməklə onlar düşünürdülər ki, beləcə bütün yanğınsöndürənlər məhv olacaq və beləcə daha kitabları yandıranlar olmayacaq. Daha sonra o, professorun məsləhəti ilə meşəyə qaçır və orada özü kimi olan insanları tapır. Onlar professorlar, alimlər və elm ilə maraqlanan insanlar idi. Monteq`in məqsədini bilib, onu qəbul edirlər.

...Gecədən bir xeyli keçmiş həyəcan siqnalı düşmən ordusunun şəhərə daxil olması və müharibənin başlamasını xəbər verir. Qaranlıq şəhər ölüm saçan silahların qorxunc işıqlarına bürünür. Hər yer bombardman edilir. Monteq və dəstəsi müharibə bitənədək gözləyir.

Monteq və dəstəsi gecənin bitməsini gözləyərkən hər kəs öz oxuduğu və yaddaşına həkk etdiyi kitabları səhərə kimi danışır. Müharibə bitəndən sonra isə hər kəsin ağzından çıxan hər bir kəlməni kağıza köçürəcəkdilər. Dəstədəki hər kəs özünü bir yazıçının və bir kitabın yerinə qoymuşdu. Dəstədəkilərdən biri "Qulliverin səyahəti" əsərinin müəllifi Conatan Svift, digəri Çarlz Darvin, başqa birisi Şopenhauer, digəri Eynşteyn idi. Onlar meşələrdə yaşadıqları üçün artıq hamı tərəfindən unudulmuş, hamının əl çəkdiyi kimsəsizlərdi. Onları məhv etmək insanların ağlına gəlmirdi. Düşünürdülər ki, kitab uğrunda rahat həyatından keçən bu adamlar artıq onlara zərər verə bilməzlər.

Səhər açılır, Monteq son tikəsini yoldaşları ilə bölüşür, ləzzətlə yeməklərini yeyirlər. Şəhər isə yerlə yeksan olmuşdu. Ancaq həmin gün yeni bir həyatın başlanğıcı olur. Monteq ətrafına baxdıqda hər kəsin onu maraq dolu baxışlarla süzdüyünü görür və bu vaxt dəstədən biri: "Bizim yeni liderimiz"- deyə çığırmağa başlayır.

Müharibə bitmiş, şəhər sakitləşmişdi. Artıq yeni həyatın ilk günü idi. Monteq xəyallarını gerçəkləşdirməyin zamanı gəldiyini anlayırdı. Kitabları çap etmək və elmi bütün dünyaya yaymaq vaxtı gəlmişdi və heç kəs onlara mane ola bilməyəcəkdi. Bu adamların əllərində kitab olmasa belə, onlar bütün kitabları beyinlərinə yerləşdirmiş insanlar idi. Beləcə, beyinlərinə yerləşdirdikləri kitablar sayəsində onlar inanırlar ki, kitabları nə qədər yandırsalar da, düşüncələri yandıra bilməzlər. Çünki düşüncələr sənin özününkündür, sənə məxsusdur.



İSTƏYİRƏM

(*Mənsur şeir*)

Şəfa Yusifli

Xəzər Universiteti, Təbiət elmləri və mühəndisliyi fakültəsinin kimya və biologiya müəllimliyi ixtisası üzrə 2-ci kurs tələbəsi

İstəyirəm ki, şair qələmi olub dəli-dolu düşüncələri yazım, bir şairin qəlb sirdaşı olub ən gözəl sətirləri doldurum. Sevinc olmaq, gülüş olmaq istəyirəm. İstəyirəm ki, ağlayan körpələrin üzünə qonum, göz yaşlarını silim, qurudum, yanaqlarında təbəssüm yaradım. Şəfa adamı olmaq, sağalmayan dərdlərə dərman olmaq istəyirəm. Çox qəlbdə ümid yaradıb təbibtək yaralara məlhəm olmaq istəyirəm. Dolu gözlərdə yaş olub deyilməyən dərdləri danışmaq, kəlmələrin yükünü azaldıb daha ağır yüklərdən dəm vurmaq istəyirəm. Sadiqlik heykəli olmaq istəyirəm. İstəyirəm ki, xəyanətlə, xainliklə vuruşum. Dünyanı aldadan, içi başqa, çölü başqa insanlara düşmən olmaq istəyirəm. Acı həqiqət olub şirin yalanlarla boğuşmaq, "yalanın qırx günlük ömrü olub" qırx birinci gün həqiqətə qovuşmaq istəyirəm. İstəyirəm ki, yaralı xalqın qayğıkeşi kimi yarasını sarıyım, məmurların rüşvət kisəsi olub mal-mülkünə əcəl olum. Göy üzü qədər uca olub hər kəsə bir tərəzidə baxmaq, varlıya da, kasıba da eyni mənzərə olmaq istəyirəm.


Atəş olmaq, alov olmaq, buz tutmuş qəlbləri isitmək istəyirəm. Yalnızlara qoşulub birgə həyatın dadını anlatmaq istəyirəm. İstəyirəm ki, aydın güzgü olub gülənlə gülüm, ağlayanla ağlayım. Ölütək yaşayanların libasını çıxarmaq istəyirəm. İstəyirəm ki, aşiqtək sevgi mələyi olub tələtümsüz ürəklərə dolum. O qəlblərdə kəpənəktək yenidən qanadlanım. Leylinin Məcnunu olub ən gözəl dastanlarda oxunmaq, Məşuqun sevgisindən divanətək çöllərə sirdaş olmaq istəyirəm. Göy qurşağıtək yağışdan sonrakı sevinc olmaq, rəngbərəng bir çələng kimi səmalarda uçmaq istəyirəm. Yaz bənövşəsitək baharın ilk müjdəsi olmaq, çəməndə qırmızı lalətək günəşlə eyni dəmdə parlamaq istəyirəm. İstəyirəm ki, dağ olub, uca zirvə olub daim məğrur dayanım. Vaxtaşırı buludlarla buluşub uca zirvələrdə görünməz olum. Musiqi olub notların ahəngində duyulum, tarın sevgi daman simi olub yarın şeirlərində canlanım. İstəyirəm ki, ağacda yarpaq olub küləkdə də, yağışda da qopmayım. Həyata bağlanmaq üçün bir telin də yetdiyini bağırmaq istiyirəm. Coşqun dəniz dalğası olub qayalara çırpılmaq, köpük dolu ağ ləpələr olub qumlarla rəqs etmək istəyirəm.

İstəyirəm ki, əlisilahlı əsgər olub yurdum uğrunda can qoyum, üçrəngli, ay-ulduzlu bayraq olub daim vətən səmasında dalğalanım. Şəhidlik rəmzi, Xarıbülbül olum, Xanın səsində yenidən açım. Şəhadət günəşitək parlaq olub hər şəhid məzarında doğum...

İstəyirəm, istəyirəm ki, həyatı həyat kimi yaşayım.

Rubrikanı Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlı aparır.

DEPARTAMENT MÜDİRİNİN HƏMMÜƏLLİFİ OLDUĞU FƏSİL SPRİNGER NƏŞRİYYATININ ÇAP ETDİYİ KİTABDA



Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun həmmüəllifi olduğu “Do People Appreciate Economic Value of Water in Baku City of Azerbaijan?” (“Azərbaycanın Bakı şəhərində insanlar suyun iqtisadi dəyərini qiymətləndirirlərmi?”) adlı məqalə Springer nəşriyyatının “Asiya ölkələrində mavi-yaşıl infrastruktur” (Blue-Green Infrastructure Across Asian Countries) kitabının bir fəsli kmi çap olunmuşdur. Məqalənin digər həmmüəllifi İtaliyanın Roma Universitetinin professoru Pasquale Lucio Scandizzo`dur.

Məqalə Bakı şəhərində suyun iqtidasdi dəyərini (value) hesablamağa yönəlmiş bir sorğunun nəticələrini əks etdirir. Nəticələrə görə, Bakı şəhərində təmiz suyun iqtisadi dəyəri bir çox amillərin təsiri nəticəsində formalaşır. Bu dəyərlərə həm istifadə, həm də qeyri - istifadə dəyərləri (use and non-use value) daxildir.

THE CHAPTER CO-AUTHORED BY THE DEPARTMENT HEAD IS IN A BOOK BY SPRINGER PUBLISHING

The article entitled “Do People Appreciate Economic Value of Water in Baku City of Azerbaijan?” and co-authored by Rovshan Abbassov, Head of the Department of Geography and Environment at Khazar University, was published as the chapter of the book “Blue-Green Infrastructure Across Asian Countries” by Springer. Another co-author of the article is Pasquale Lucio Scandizzo, the professor at the University of Rome in Italy.

The article reflects the results of the survey aimed at calculating the economic value of water in Baku. According to the results, the economic value of clean water in Baku is formed under the influence of many factors. These include both use and non-use values.

“XƏZƏR”İN DEKANI *AZTV*-NİN “*ÇIXIŞA DOĞRU*” VERİLİŞİNDƏ

KHAZAR UNIVERSITY DEAN IN “*ÇIXIŞA DOĞRU*” PROGRAM OF *AZTV*

Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Elza Səmədli 2022-ci il martın 1-də AZTV-nin İctimai-Siyasi Proqramlar Studiyasının “Çıxışa doğru” verilişində təhsil eksperti kimi iştirak etmişdir.

Verilişdə Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramının prioritet istiqamətləri müzakirə olunmuş, Elza Səmədli digər iştirakçılarla yanaşı, öz fikir və mülahizələrini bildirmişdir. Verilişdə, həmçinin, “Yüksəliş” müsabiqəsinin qalibi Fərrux Əliyev, təhsil eksperti Sücaət Vəliyev, xaricdə təhsil mütəxəssisi İnarə Əliyeva və təhsil nazirinin müşaviri Nicat Məmmədli iştirak etmişlər.

On March 1, 2022, Associate Professor Elza Samedli, Dean of the School of Humanities, Education, and Social Sciences at Khazar University, Doctor of Philosophy in Philology, participated as an education expert in the program “Çıxışa doğru” (“Towards the Solution”) of AZTV’s Public-Political Programs Studio.

The program discussed the priorities of the State Program for 2022-2026 on the education of young people in prestigious universities abroad and Elza Samedli, along with other participants, expressed her views and opinions. The program was also attended by Farrukh Aliyev, winner of the “Rising” contest, Sujaat Valiyev, an education expert, Inara Aliyeva, an education specialist abroad, and Nijat Mammadli, an adviser to the Minister of Education.

https://youtu.be/aWXVBw7uAk8

DEPARTAMENT KOORDİNATORU “*BƏLƏDÇİ*” VERİLİŞİNDƏ

DEPARTMENT COORDINATOR IN THE PROGRAM “*BƏLƏDÇİ*”

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova 2022-ci il martın 7-də Azərbaycan Respublikası Təhsil nazirliyinin dəstəyi ilə yaradılan Təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının (T-Network) “Bələdçi” verilişinin qonağı olub. Verilişin bu buraxılışının mövzusu “Məktəbdə psixoloji sağlamlığın təminatı” idi.

Verilişdə məktəblərdə sağlam psixoloji iqlimin formalaşması üçün zəruri olan məsələlərə toxunulmuş, xüsusən məktəbə bağlılıq hissinin formalaşdırılmasının zəruriliyi qeyd edilmişdir. Məktəblərdə işləyən psixoloqların qarşılaşdıqları çətinliklər, psixoloqlar haqqında miflər, məktəb-ailə-şagird-cəmiyyət əməkdaşlığına sistemli yanaşmanın əhəmiyyəti üzərində dayanılmışdır. Veriliş birbaşa yayımlandığı üçün maraqlı müzakirələr aparılmış və izləyicilərdən gələn suallar cavablandırılmışdır.

On March 7, 2022, Malak Karimova, Coordinator of Khazar University’s Department of Psychology, was a guest on the” Bələdçi”(“Guide”)program of the Educators’ Experience and Communication Platform (T-Network), established with the support of the Ministry of Education of the Republic of Azerbaijan. The topic of this program was “Ensuring mental health at school.”

The program touched upon the issues necessary for the formation of a healthy psychological climate in schools, in particular, the need to form a sense of attachment to school. The challenges faced by psychologists working in schools, myths about psychologists, and the importance of a systematic approach to school-family-student-community cooperation were highlighted. As the program was broadcast live, interesting discussions were held and questions from the audience were answered.

https://fb.watch/bE2KzztVTN/

https://www.facebook.com/tnetwork.az/videos/b%C9%99l%C9%99d%C3%A7i/365266138803855/

DEPARTAMENT MÜDİRİ İCTİMAİ TV-NİN "SABAHA SAXLAMAYAQ" VERİLİŞİNDƏ

2022-ci il martın 9-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov İctimai TV-nin "Sabaha saxlamayaq" verilişində ekspert qismində iştirak etmişdir.

Kür çayının qurıması kimi aktual və mühüm məsələnin müzakirəsinə həsr olunmuş verilişdə Rövşən Abbasov digər həmkarları ilə yanaşı, fikir və mülahizələrini bildirmiş, problemin həlli yollarını göstərmişdir.

DEPARTMENT HEAD IN "SABAHA SAXLAMAYAQ" PROGRAM ON PUBLIC TV

On March 9, 2022, Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, participated as an expert on Public TV's " Sabaha saxlamayaq " ("Let's not keep it until tomorrow")program.

In the program dedicated to the discussion of topical and important issues such as the drying of the Kura River, Rovshan Abbasov, along with other colleagues, expressed his views and opinions, and suggested ways to solve the problem.

https://www.youtube.com/watch?v=7XRYQlDqQjA&t=1399s

AZİNFORUM.AZ SAYTINA MÜSAHİBƏ

INTERVIEW TO AZINFORUM.AZ

2022-ci il martın 16-da azinforum.az informasiya portalı Kür çayında suyun azalması ilə bağlı problemlərə aid müsahibələrdən ibarət geniş araşdırma dərc etmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev və Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini, millət vəkili Asim Mollazadə ilə yanaşı, su məsələləri üzrə ekspert, Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovdan da müsahibə alınmışdır.

Rövşən Abbasov Kür çayının qurumasıyla yarana biləcək fəsadlardan danışaraq, məsələnin həlli yollarına da diqqət çəkib.

On March 16, 2022, the information portal azinforum.az published an extensive study of interviews on the problems of water scarcity in the Kura River. Along with Asif Verdiyev, Director of the Hydrology Center of the National Hydrometeorological Service under the Ministry of Ecology and Natural Resources, and Asim Mollazadeh, Deputy Chairman of the Parliamentary Committee on Natural Resources, Energy, and Ecology, an expert on water issues, Rovshan Abbasov, Head of the Department of Geography and the Environment at Khazar University, was also interviewed.

Rovshan Abbasov spoke about the possible consequences of the drying up of the Kura River and drew attention to ways to solve the problem.

https://azinforum.az/arashdirma/aqroparklarin-yaratdigi-kur-f%c9%99lak%c9%99ti-k%c9%99ndl%c9%99r-m%c9%99hv-olacaq-arasdirma/

ÇİNİN ŞANXAY UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA MÜQAVİLƏ İMZALANDI

AGREEMENT SIGNED BETWEEN SHANGHAI UNIVERSITY OF CHINA AND KHAZAR UNIVERSITY

Martın 18-də Direktorlar və Qəyyumlar Şurasının görüş otağında Şanxay Universiteti və Xəzər Universiteti arasında ikitərəfli müqavilə imzalanmışdır. Tədbirdə Şanxay Universitetinin azərbaycanlı nümayəndəsi Aqşin Əliyev və Xəzər Universitetinin təsisçisi, Direktprlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, rektor dosent İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, fakültə dekanları və departament müdirləri iştirak etmişlər.

Görüşün ikinci hissəsi Xəzər Universitetinin 31 illik yubileyinə həsr olunmuşdur.

On March 18, a bilateral agreement was signed between Shanghai University and Khazar University in the meeting room of the Board of Directors and Trustees. Azerbaijani representative of Shanghai University Agshin Aliyev and founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Professor, Academician Hamlet Isakhanli, Rector Associate Professor Irada Khalilova, Vice Rector for Management and Student Affairs Isakhan Isakhanli, Vice Rector for Education Mahammad Nuriyev, deans of schools and department heads attended the event.

The second part of the meeting was dedicated to the 31st anniversary of Khazar University.



"XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ DÜNYA SU RESURSLARI GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONFRANSDA

DEPARTMENT HEAD OF KHAZAR UNIVERSITY AT WORLD WATER RESOURCES DAY CONFERENCE

Martın 22-də "Azərsu" ASC və "Azərsu" ASC-nin yanında İctimai Şuranın birgə təşkilatçılığı ilə Dünya Su Resursları Gününə həsr olunmuş "Qlobal iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri və sudan səmərəli istifadə" mövzusunda onlayn konfrans keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan "Azərsu" ASC yanında İctimai Şuranın sədri Rauf Zeyni bidirib ki, son illər müşahidə olunan iqlim dəyişiklikləri şirin su ehtiyatlarının azalmasına səbəb olub. Əksər dünya ölkələrində, o cümlədən Azərbaycanda da müşahidə olunan bu tendensiyanın təsirlərini azaltmaq üçün hökumət səviyyəsində kompleks tədbirlər görülür. Belə şəraitdə istehlakçıların sudan qənaətlə istifadəsi təşviq edilməlidir və bu işdə vətəndaş cəmiyyətinin üzərinə böyük vəzifələr düşür.

Konfransda çıxış edən BDU-nun prorektoru Fərda İmanov, Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, "Azərsu" ASC yanında İctimai Şuranın üzvü Rövşən Abbasov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Faiq Mütəllimov, Milli Məclisin üzvü Ceyhun Məmmədov, FHN-nin Su Ehtiyatları Dövlət Agentliyinin şöbə müdiri Sevinc Quliyeva, Meliorasiya və Su Təsərrüfatı ASC-nin aparat rəhbərinin müavini Kənan Abdullayev, "Azərsu" ASC-nin şöbə rəisi Elkin Rüstəmov, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin əməkdaşı Aynur Seyidyusif və digər iştirakçılar Azərbaycanın şirin su ehtiyatlarının dinamikası və gözləntilər, suvarmada, sənayedə və məişətdə su ehtiyatlarından səmərəli istifadə və onun təşviqi məsələlərindən ətraflı bəhs ediblər.

Qeyd edək ki, BMT Baş Assambleyasının 22 dekabr 1992-ci il tarixli qətnaməsinə əsasən 1993-cü ildən başlayaraq hər il 22 mart Dünya su resursları günü kimi qeyd olunur.

On March 22, an online conference on "Impact of global climate change on water resources and efficient use of water" dedicated to the World Water Resources Day was organized by the Public Council under "Azersu" OJSC and "Azersu" OJSC.

Opening the event, Rauf Zeyni, Chairman of the Public Council under Azersu OJSC, said that climate change in recent years has led to a decrease in freshwater resources. Comprehensive measures are being taken at the government level to reduce the impact of this trend, which is observed in many countries around the world, including Azerbaijan. In such cases, consumers should be encouraged to use water sparingly, and civil society bears a great responsibility for this.

Speaking at the conference, Vice-Rector of BSU Farda Imanov, Head of the Department of Geography and Environment of Khazar University, Member of the Public Council at Azersu OJSC Rovshan Abbasov, Head of the Department in the Ministry of Ecology and Natural Resources Faig Mutallimov, Member of Milli Majlis Jeyhun Mammadov, Head of the State Agency for Water Resources of the Ministry of Emergency Situations Sevinj Guliyeva, Deputy Chief of Staff of the Amelioration and Water Management OJSC Kanan Abdullayev, department head in Azersu OJSC Elkin Rustamov, Representative of the Food and Agriculture Organization of the United Nations (FAO) in Azerbaijan Aynur Seyidyusif, and other participants spoke in detail about the dynamics and expectations of freshwater resources in Azerbaijan, the issues of efficient use and promotion of water resources in irrigation, industry and household.

It should be noted that according to the resolution of the UN General Assembly dated December 22, 1992, since 1993, March 22 has been marked as World Water Day.



KEDGE BİZNES MƏKTƏBİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

MEETING WITH THE REPRESENTATIVE OF KEDGE BUSINESS SCHOOL

Martın 14-də Kedge Biznes Məktəbinin Beynəlxalq əlaqələr üzrə mütəxəssisi Myriem Ziani ilə görüş keçirildi.

Görüşdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva iştirak etdilər. Görüşdə iki təhsil müəssisəsi arasında tərəfdaşlıq əlaqələrinin və akademik əməkdaşlığın qurulması istiqamətində müzakirələr aparıldı.

Qeyd edək ki, Kedge Biznes məktəbi Bordo, Marsel, Tulon, Paris, Şanxay və Suzhou şəhərlərində kampusları olan Fransız biznes məktəbidir. 2013-cü ildə təsis edilmiş, iki fransız biznes məktəbinin (BEM və Euromed) birləşməsi nəticəsində yaradılmışdır:

On 14 March, 2022 we, had a pleasure of hosting Myriem Ziani, International Business Developer from Kedge Business School.

Irada Khalilova, Rector of the Khazar University, Mahammad Nuriyev, Vice Rector for Academic Affairs, Lyudmila Sotova, Director of Quality Assurance Center, Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business, Jeyhun Mammadov, Dean of the School of Economics and Management and Fatima Valiyeva, Coordinator of International Affairs Office attended the meeting. The meeting focused on the establishment of partnerships and academic cooperation between the two educational institutions.

Note that, Kedge Business School is a French business school with campuses in Bordeaux, Marseille, Toulon, Paris, Shanghai and Suzhou. It was founded in 2013 as a result of the merger of two French business schools (BEM and Euromed).

UniLab LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SƏFƏR

VISIT WITHIN UNILAB PROJECT

Martın 15-18-də Xəzər Universitetinin əməkdaşları UniLab layihəsi çərçivəsində Fransanın Lille şəhərindəki Lille Universitetində səfərdə olublar. Səfərdə universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora, Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə, İnkişaf ofisinin layihə rəhbəri Məhin Cəbrayılova və Tələbə Məclisinin prezidenti Ramal Quluzadə iştirak ediblər.

Lille Universitetində layihə komandası qarşılanıb və keçən üç gün ərzində onlara universitetin Karyera mərkəzinin işləmə mexanizmi və "Lilagora" karyera platforması haqqında məlumat verilib, innovativ pedaqoji nümunələr, ömür boyu öyrənmə, biznes müəssisələri ilə əməkdaşlıq yaratmaq mövzularında təlimlər keçirilib. Yekunda isə UniLab layihəsinin koordinatoru tərəfindən təlim iştirakçılarına müəyyən tövsiyələr verilmiş və səfər başa çatmışdır.

On March 15-18, Khazar University staff members visited the University of Lille in Lille, France as part of the UniLab project. The visit was attended by Vlad Vernygora, Vice-Rector for International Relations, Elnura Ahmadzadeh, Coordinator of the Career Center, Mahin Jabrailova, Project Manager of the Development Office, and Ramal Guluzadeh, President of the Student Assembly.

The project team was welcomed at the University of Lille and during these three days they were informed about the mechanism of the University's Career Center and "Lilagora" career platform and trainings on innovative pedagogical examples, lifelong learning, cooperation with businesses were held.





TƏHSİL DEPARTAMENTİNİN TƏLƏBƏSİ BEYNƏLXALQ TƏDQİQAT QRANTI QAZANIB

A STUDENT OF EDUCATION DEPARTMENT WON AN INTERNATIONAL RESEARCH GRANT

Xəzər Universiteti Təhsil departamentinin magistr tələbəsi Röyal Mahmudov Cənubi Qafqazın Amerika Tədqiqat İnstitutu (American Research İnstitute of the South Caucasus (ARISC) tərəfindən elan olunmuş tədqiqat qrantını qazanıb. Röyal 6 ay davam edəcək və ARISC tərəfindən maliyələşdiriləcək araşdırmasında Azərbaycanda universitet tələbələrinin qarşılaşdıqları problemləri öyrənməyə çalışacaq. Elmi rəhbərliyini Təhsil departamentinin koordinatoru Cavid Cəfərovun edəcəyi layihənin nəticələri isə həm ARISC-in internet səhifəsində yerləşdiriləcək, həm də beynəlxalq jurnalda dərc olunacaq.

Röyal Mahmudov 2022-ci il üçün Azərbaycandan bu layihəni qazanan yeganə tələbədir. Ümumilikdə, indiyədək Azərbaycandan bu kateqoriyada ARISC tərəfindən elan olunmuş tədqiqat qrantını ancaq 2 nəfər qazanıb.

Royal Mahmudov, the master's student in the Department of Education at Khazar University, has won a research grant announced by the American Research Institute of the South Caucasus (ARISC). Royal will spend 6 months and try to study the problems faced by university students in Azerbaijan in his research, which will be funded by ARISC. The results of the project, which will be supervised by the coordinator of the Department of Education Javid Jafarov, is to be posted on the website of ARISC and published in an international journal.

Royal Mahmudov is the only student from Azerbaijan to win this project for 2022. In general, so far only two people from Azerbaijan have won the research grant announced by ARISC in this category.

"DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİMİ BEYNƏLXALQ FORUMDA

DUNYA SCHOOL TEACHER AT AN INTERNATIONAL FORUM

Azərbaycan Maarifçilər Assosisasiyasının (AMA) təşəbbüsü və İstanbul Doğuş Universiteti, İstanbul Topkapı Universiteti və Şəhid Fikrət Mətin Öztürk adına orta məktəbin birgə təşkilatçılığı ilə martın 21-25-də İstanbulda "Eğitimde Yeni Trendler- İstanbul Eğitim Forumu 2022" keçirilmişdir. Ölkənin ən böyük təhsil icmasını təmsil edən AMA bu foruma ölkənin bir sıra bölgələrini təmsil edən 48 nəfərlik Azərbaycan maarifçisi ilə qatılmışdı.

Forumun İstanbul TopKapı Universitetində keçən iclasında "Dünya" Məktəbinin müəllimi Səbinə Məmmədova da çıxış edərək, Azərbaycandakı təhsil sistemindən danışmışdır.

Forum haqqında *azedu.az* təhsil portalı geniş məqalə dərc etmişdir:

"New Trends in Education - Istanbul Education Forum 2022" was held in Istanbul on March 21-25, at the initiative of the Azerbaijan Enlightenment Association (AEA) and jointly organized by Istanbul Dogush University, Istanbul Topkapi University and Shahid Fikret Metin Ozturk Secondary School. AEA, representing the largest educational community in the country, participated in the forum with 48 Azerbaijani educators representing a number of regions of the country.

Sabina Mammadova, the teacher at Khazar University's Dunya School and Ecology Lyceum No. 291, spoke about the education system in Azerbaijan at the meeting held at Istanbul Topkapi University.

The educational portal azedu.az published an extensive article about the forum:

https://azedu.az/az/news/54034-maarifcilerimiz-beynelxalq-tedbirden-geri-donubler-foto

"XƏZƏR"İN MÜƏLLİMİ MEDİASİYA ŞURASI İXTİSAS KOMİSSİYASINA ÜZV TƏYİN OLUNUB

KHAZAR UNIVERSITY FACULTY MEMBER APPOINTED A MEMBER OF MEDIATION COUNCIL'S QUALIFICATION COMMISSION



Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsində "Mediasiya: nəzəriyyə və praktika" fənnini tədris edən mediator-təlimçi Hüseyn Əliyev Mediasiya Şurasının İxtisas Komissiyasının üzvü təyin olunub. Bu barədə Mediasiya Şurasının İdarə Heyətinin İxtisas və İntizam Komissiyalarının birgə keçirdiyi iclasda qərar qəbul edilib.

H. Əliyev bakalavr təhsilini 2003-2007-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq hüquq ixtisası üzrə, magistr təhsilini 2007-2009-cu illərdə Şimali Kipr Türk Respublikasının Girne Amerikan Universitetində Biznesin inzibatçılığı (MBA) istiqaməti üzrə fərqlənmə ilə bitirib. 2011-2012-ci illərdə ABŞ Dövlət Departamentinin Edmund S.Muskie Mübadilə Proqramı (Muskie) çərçivəsində Tuleyn Universitetində təhsil alaraq, Beynəlxalq və müqayisəli hüquq ixtisası üzrə fərqlənmə ilə magistr dərəcəsi alıb.

Korporativ və kommersiya hüququ üzrə ixtisaslaşaraq, 12 illik peşəkar təcrübəyə malik olan Hüseyn Əliyev hazırda neft-qaz şirkətində hüquq şöbəsinin rəhbəri vəzifəsində çalışır. İxtisas Komissiyasının üzvü təyin olunanadək Mediasiya Şurasının Layihələrin idarə edilməsi işçi qrupunun üzvü kimi fəaliyyət göstərib. O, həmçinin, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının yeni üzvlərindəndir. H.Əliyev 2012-ci ildən etibarən Bakı Dövlət Universitetində "Mübahisələrin məhkəmədənkənar həlli" və 2022-ci ildən etibarən Xəzər Universitetində "Mediasiya: nəzəriyyə və praktika" fənlərini tədris edir.


2022-ci il martın 29-da *huquq.az* və digər saytlar bu barədə xəbər yayımlamışlar.

Huseyn Aliyev, the mediator-trainer teaching "Mediation: Theory and Practice" at Khazar University's School of Economics and Management, has been appointed a member of the Mediation Council's Qualification Commission. The decision was made at a joint meeting of the Qualification and Disciplinary Commissions of the Mediation Council.

H. Aliyev graduated with a bachelor's degree in International Law from Baku State University in 2003-2007, and a master's degree in Business Administration (MBA) from Girne American University of the Turkish Republic of Northern Cyprus in 2007-2009. From 2011 to 2012, he studied at the University of Tulane under the US Department of State's Edmund S. Muskie Exchange Program (Muskie), earning a master's degree in International and Comparative Law. H. Aliyev, who specialized in corporate and commercial law and has 12 years of professional experience, currently works as the head of the legal department at an oil and gas company. Prior to his appointment as a member of the Qualification Commission, he was a member of the Mediation Council's Project Management Working Group. He is also a new member of the Bar Association of the Republic of Azerbaijan. H.Aliyev has been teaching "Out-of-Court Dispute Resolution" at Baku State University since 2012 and "Mediation: Theory and Practice" at Khazar University since 2022.

On March 29, 2022, *huquq.az* and other websites published news about it.

https://www.e-huquq.az/az/news/mediation/46067.html



KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Khazar Journal of Science and Technology ("Xəzər Elm və Texnologiya Jurnalı") yeni nömrəsi (Cild 5, №2, 2021) çapdan çıxmışdır. Yeni nömrəyə daxil olan məqalələr biologiya, tibb, təbiət elmləri, kimya, kompüter elmləri və mühəndislik sahələrinə aiddir.

Məqalələrin tam versiyaları ilə bu link vasitəsilə oxumaq mümkündür: https://kjsat.com/

Sizi Khazar Journal of Science and Technology jurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalə və araşdırmalarınızı bizə göndərməyə dəvət edirik. Daha ətraflı məlumat üçün: https://kjsat.com/AuthInst.html

A NEW ISSUE OF KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY PUBLISHED

The new special issue (Vol. 5, N°2, 2021) of Khazar Journal of Science and Technology has been released. The published articles of this issue are from fields such as biology, medicine, earth sciences, chemistry, computer sciences and engineering.

You can read the full articles here: https://kjsat.com/

We encourage you to read KJSAT, cite from its publications, and submit your quality and original papers and researches articles for possible publication.

For more information about submissions, please, see: https://kjsat.com/

PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ
THE MEETING WITHIN PICASP PROJECT

PICASP
Erasmus+ Project

Martın 29-da Xəzər Universitetinin tərəfdaş universitet olduğu və Ud'A Universiteti (Università degli Studi G. d'Annunzio di Chieti-Pescara) tərəfindən koordinə edilən "Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kursları"- PICASP (617540-EPP-1-2020-1-IT-EPPKA2-CBHE-JP) adlı layihə üzrə virtual görüş keçirildi.

Layihə tərəfdaşları layihə çərçivəsində görülən işlər və nəzərdə tutulan tədbirlər haqqında məlumat verdilər. Hər bir tərəfdaş vəziyyəti qısa bir təqdimat vasitəsilə nəzərə çatdırdı. Yekun müzakirə ikinci ildə planlaşdırılan fəaliyyətlərin necə davam etdiriləcəyinə qərar verməklə əlaqədar idi. Növbəti görüşün mümkün qədər tez bir zamanda, hamı üçün uyğun bir vaxtda keçirilməsi də müzakirə olundu.

Tədbirdə Xəzər Universiteti və Azərbaycan Turizm və Menecment Universitetinin inkişaf ofislərinin əməkdaşları, "Miras" İctimai Birliyinin üzvləri, layihənin tərəfdaş ölkələri - İtaliya, Polşa, Litva, Rusiya və Qazaxıstandan olan nümayəndələr iştirak ediblər.

On March 29, the virtual meeting was held on the project entitled "Erasmus+ Industrial Enterprise Pilot Courses for University-Enterprise Cooperation for the Development of Caspian Region"- PICASP (617540-EPP-1-2020-1-IT-EPPKA2-CBHE-JP) to which Khazar University is a partner university and coordinated by the University of Ud'A (Università degli Studi G. d'Annunzio di Chieti-Pescara).

The project partners reported on the work done under the project and the activities planned. Each partner presented the situation through a short power point. The final discussion was about to decide how to proceed with the activities planned in the second year. In the meeting they discussed to choose a date useful to all for a new meeting, to be carried out as soon as possible.

The event was attended by Director Development Ms. Raziya İsayeva and staff members of Development Office of Khazar University, Azerbaijan University of Tourism and Management, members of the "Miras" Public Association, and representatives from the project's partner countries- Italy, Poland, Lithuania, Russia, and Kazakhstan.



31 MART SOYQIRIMI GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

EVENT DEDICATED TO MARCH 31- GENOCIDE DAY

Martın 31-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə 31 Mart 1918-ci ildə erməni silahlı birləşmələrinin Azərbaycan türklərinə qarşı həyata keçirdiyi cinayətlər və soyqırım haqda tədbir keçirildi.

Tədbirdə Xəzər Universitetinin Hümanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Tarix və arxeologiya departamentinin müdiri Telman Nusrətoğlu və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdilər.

Tədbirdə departamentin müəllimlərindən Bayram Quliyev və Söhrab Mustafayevin mövzu ilə bağlı çıxışları oldu.

On March 31, an event on the crimes and genocide committed by the Armenian armed forces against the Azerbaijani Turks on March 31, 1918 was organized by the Department of History and Archeology at Khazar University.

The event was attended by Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences, Telman Nusratoglu, Head of the Department of History and Archeology, and AlovsatAmirbayli, Director of Public Relations and Media of KhazarUniversity.

Bayram Guliyev and Sohrab Mustafayev, the lecturers of the department, delivered speeches on the topic at the event.





RUSİYANIN KAZAN UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA MÜQAVİLƏ İMZALANDI

AGREEMENT SIGNED BETWEEN RUSSIA'S KAZAN UNIVERSITY AND KHAZAR UNIVERSITY

Martın 31-də Direktorlar və Qəyyumlar Şurasının görüş otağında Kazan Universiteti və Xəzər Universiteti arasında ikitərəfli əlaqələrin möhkəmlənməsinə dair müqavilə imzalanmışdır. Tədbirdə Kazan Universitetinin tədris işləri üzrə prorektoru Dr. Timirxan Alışev və əməkdaşları, Xəzər Universitetinin rəhbərliyi – təsisçi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, rektor dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, fakültə dekanları və departament müdirləri iştirak etmişlər.

Görüşün ikinci hissəsində tələbələrlə keçirilən seminarda Kazan Universiteti əməkdaşlarına Xəzər Universiteti haqqında ətraflı məlumat verilmişdir. Sonra qonaqların şərəfinə ziyafət təşkil olunmuşdur.

On March 31, 2022, an agreement was signed between Kazan University and Khazar University to strengthen bilateral relations in the meeting room of the Board of Directors and Trustees. The event was attended Vice-Rector for Academic Affairs Dr.Timirkhan Alishev and staff members from Kazan University, Khazar University management staff - Founder Prof. H.Isakhanli, Rector Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Management and Student Affairs Isakhan Isakhanli, Vice-Rector for Academic Affairs Mahammad Nuriyev, deans of faculties and heads of departments.

In the seminar held with the participation of students in the second part of the meeting Kazan University staff was given detailed information about Khazar University. Then a banquet was organized in honor of the guests.















PSİXOLOGİYADA YENİ ARAŞDIRMA TƏMAYÜLLƏRİNƏ AİD SEMİNAR

SEMINAR ON NEW RESEARCH TRENDS IN PSYCHOLOGY

Martın 31-də Xəzər Universiteti Psixologiya departamentinin müəllimi, tədqiqatçı Ülkər İsayevanın "Psixologiya, neyroelm və maşınla öyrənmə: əsasları və ehtimallar" ("Psychology, Neuroscience and machine learning: Fundamentals and Possibilities") adlı seminarı təşkil edildi. Ü.İsayeva hazırda İtaliyanın Cagliari Universitetində tədqiqat işini davam etdirir.

Seminarda psixologiya elminin araşdırma perspektivlərindən, son illərdə daha da sürətlə inkişaf etməyə başlayan neyroelm sahəsinin tədqiqat istiqamətlərindən, xüsusən gələcəkdə insanlardan əldə edilən bir çox məlumatlar bazasının xəstəliklərlə bağlı proqnozlaşdırmalara da müsbət təsir edəcəyindən bəhs edildi. Suni intellekt əsrində bütün bu məlumatların rəqəmsal maşınlar vasitəsilə daha qısa müddətdə və daha dəqiq şəkildə olacağı və tibbin müxtəlif sahələrinin daha da praktik hala keçməsi ilə əlaqədar fikir mübadiləsi aparıldı.

Tədqiqatçı psixoloq Ülkər İsayeva iştirakçılar tərəfindən verilən sualları ətraflı cavablandırdı. Seminar tələbə və müəllim heyətinin böyük marağına səbəb oldu.

On March 31, 2022, a seminar entitled "Psychology, Neuroscience and machine learning: Fundamentals and Possibilities" was organized by Ulker Isayeva, the researcher and lecturer in the Department of Psychology at Khazar University.

U.Isayeva is currently conducting research at the University of Cagliari in Italy.

The seminar covered the research prospects of psychology, research areas in the field of neuroscience, which has begun to develop rapidly in recent years. It also discussed that in the future many databases obtained from people will have a positive impact on disease prognosis. There was an exchange of views on how all this information would be available in a shorter time and more accurately through digital machines, and how various fields of medicine would become more practical In the age of artificial intelligence.

Researcher psychologist Ulker Isayeva answered the questions of the participants in detail. The seminar aroused great interest among students and faculty.

FLORİDA DÖVLƏT UNİVERSİTETİNİN VEB-SAYTINDA "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ HAQQINDA YAZI

AN ARTICLE ABOUT KHAZAR UNIVERSITY'S DEPARTMENT HEAD ON FLORIDA STATE UNIVERSITY WEBSITE


Florida Dövlət Universitetinin (FSU) veb-saytında fevral ayı ərzində universitetin qonaq professoru olmuş Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun FSU-da fəaliyyətini işıqlandıran yazı dərc olunmuşdur.

Yazıda, eyni zamanda, Rövşən Abbasovun keçirdiyi görüşlərdən də bəhs edilir və qeyd olunur ki, bu görüşlərdə təkcə işgüzar məsələlər deyil, həm Amerika, həm də Azərbaycan alimlərinin şəxsi həyatı, onların üzləşdirkləri problemlər və bu problemlərdən çıxış yolları müzakirə olunurdu.

An article was published on the website of Florida State University (FSU) covering the activities of Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, who spent a month at the university in February as a visiting professor.

The article also mentions the meetings held by Rovshan Abbasov and notes that these meetings discussed not only work issues, but also the personal lives of American and Azerbaijani scientists, the problems they face and ways out of these problems.

https://news.cci.fsu.edu/cci-news/cci-faculty/forming-connections-cci-hosts-dr-rovshan-abbsasov-of-azerbaijan/?fbclid=IwAR2SG_s3nxCZAOtp84TbhJe51ARbJszteZdjqe8VAt8EhCiLlHIt60CD-Hs



SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "JOURNAL OF POLITICAL POWER" JURNALINDA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, fəlsəfə doktoru Anar Cəfərovun həmmüəllifi olduğu Republican freedom, domination, and ignorability ("Respublikaçı azadlıq, dominasiya və iqnorabillik") adlı məqalə "*Journal of Political Power*" jurnalında (Taylor & Francis nəşriyyatı) ilk olaraq onlayn yayımlanmışdır. Məqalədə siyasi filosoflar Sean İngham və Frank Lovettin təqdim etdikləri respublikaçı azadlıq nəzəriyyəsinin bir sıra mühüm aspektləri tənqid edilir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

https://www.tandfonline.com/doi/full/10.1080/2158379X.2022.2055276

ARTICLE CO-AUTHORED BY FACULTY MEMBER OF THE POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT IN

An article on Republican freedom, domination, and ignorability co-authored by Dr. Anar Jafarov, a full-time lecturer in the Department of Political Sciences and Philosophy at Khazar University, has been published (first online) in "*Journal of Political Power*" (Taylor & Francis). The article criticizes some important aspects of the theory of republican freedom elaborated by the political philosophers Sean Ingham and Frank Lovett.

The article can be found at the following link:

https://www.tandfonline.com/doi/full/10.1080/2158379X.2022.2055276



MUXTAR RESPUBLİKADA İLK DƏFƏ REALLAŞDIRILAN İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ BOOTCAMP LAYİHƏSİ UĞURLA YEKUNLAŞIB

Üç gün davam edən layihənin ilk günü web developer Durna Zeynallı "React" proqramlaşdırma dili haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edilib ki, "React" istifadəçi interfeyslərinin qurulması üçün açıq mənbəli JavaScript kitabxanasıdır. Bu Facebook və fərdi inkişaf etdiricilər və şirkətlər birliyi tərəfindən təmin edilir.

Estoniyadan təlimə onlayn qoşulan həmyerlimiz, web developer Haşım Haşımov "Backend proqramlaşdırma" mövzusunda çıxış edərək "Python haqqında", "Pythonun kitabxanaları", "Köməkçi alətlər" kimi mövzulardan bəhs edib.

Təlimin ikinci günü "Bulud texnologiyaları" haqqında onlayn məlumat verən BestCompt MMC-nin əməkdaşı İlyas Novruzlu bildirib ki, bulud texnologiyaları konsepsiyası kompüter texnologiyalarının infrastrukturunun və proqram təminatının bilavasitə şəbəkə mühitində yaradılmasını və istifadə edilməsini təmin edir.

Günün II yarısı NDU aparıcı mühasibi Təhmasib Quluzadə "Rəqəmsal iqtisadiyyat, dijital marketinq" mövzusunda təlim keçib. Qeyd edilib ki, marketinq fəaliyyətini rəqəmsal texnologiyaların köməyi ilə həyata keçirmə prosesi olan rəqəmsal marketinqin əsas məqsədi markanı, məhsul və ya xidməti internet vasitəsi ilə tanıtmaqdır.

Təlimin sonuncu günü universitetin İKT və Elektron Təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli "Əşyaların interneti: əldə edilən təcrübə və perspektivlər", "Startap və ekosistemlərin tətbiqində İKT" adlı təlimlərdə bu sahədə baş verən ən son texnoloji yenilikləri iştirakçıların diqqətinə çatdırıb. Təlim zamanı tələbələrin hazırladığı Startap layihələri dinlənilib, onlara mentor dəstəyi göstərilib.

Təlimlər zamanı tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün intellektual oyunlar təşkil edilib. Layihənin yekun günündə "SR Group CO" şirkətinin Senior Systems administratoru Rəşad Bayramovun "İT sahəsinə gedən yol" mövzusundakı təlimi dinlənilib. Təlimdə beynəlxalq İT sertifikatlarının əldə olunması məqsədilə tələbələrə metodiki göstərişlər, həmçinin "İKT LAB"-ın resurslarından istifadə qaydaları barədə məlumat verilib. Eyni zamanda iştirakçılara "Cisco"nun netacad.com təhsil portalında olan kursları təqdim edilib.

Qeyd edək ki, təlimin sonunda təlimçilərə universitet adından təşəkkürnamə təqdim edilib.



NDU-NUN TÜRKİYƏ UNİVERSİTETLƏRİ İLƏ ƏLAQƏLƏRİ DAİM İNKİŞAF EDİR

İstanbul Texnik Universitetinin rektoru, professor İsmayıl Koyuncu, universitetin prorektoru, professor Lütfiyə Durak Ata, Türk Musiqisi Dövlət Konservatoriyasının müdiri, professor Ali Tüfekçi NDU-ya gəliblər. Ali təhsil ocağında qarşılama mərasimindən sonra qonaqlar universitetin Konservatoriyasında olublar. Qonaqlar fakültənin bazasında mövcud olan İnstrumental ifaçılığın Fortepiano, Simli alətlər, Nəfəs alətləri, Solo oxuma ixtisasları üzrə tələbələrin dərsində olub, onların yüksək həvəslə təqdim etdikləri musiqi nömrələrini izləyiblər. Türkiyəli qonaqlar Litva respublikasından alınan və ilk dəfə ali təhsil ocağında qurulan elektron filarmoniya avadanlığının fəaliyyətini xüsusi heyranlıqla qarşılayıblar. Bildirilib ki, optik internet vasitəsilə idarə olunan avadanlıqla eyni zamanda 2 fərqli ölkədə konsert yayımlamaq mümkündür. Görüşdə gələcəkdə birgə konsertlərin keçirilməsi barədə razılığa gəlinib. Qonaqlar müəllim və tələbələrdən ibarət Kamera orkestri, Xalq çalğı alətləri ansamblının ifalarını dinləyib, tələbələrin dərs prosesini izləyiblər. Fakültənin sərgi salonunda müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub. Sərgidə rəsm əsərləri, dekorativ tətbiqi sənət nümunələri, zərgərlik məmulatları, heykəltəraşlıq, taxta üzrəində oyma və yandırma üsulu ilə yerinə yetirilən sənət əsərləri qonaqların zövqünü oxşayıb.

İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Ötən il İstanbul Texniki Universiteti ilə qarşılıqlı görüşlərdən sonra bu günkü görüşün xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Rector rəhbərlik etdiyi ali təhsil ocağının beynəlxalq əlaqələrində Türkiyə universitetlərinin xüsusi payı olduğunu diqqətə çatdırıb.

İstanbul Texnik Universitetinin rektoru, professor İsmayıl Koyuncu qeyd edib ki, 1773-cü ildə yaradılan və dünyanın mühəndis hazırlayan ilk universiteti kimi tarixə düşən İstanbul Texnik Universiteti müasir təhsil sistemi, güclü akademik heyəti ilə Türkiyənin nüfuzlu ali təhsil müəssisələri arasında ön sıralarda dayanıb. Vurğulanıb ki, İstanbul Texniki Universiteti geniş beynəlxalq əlaqələri sayəsində yalnız ölkə daxilində deyil, beynəlxalq mühitdə də qabaqcıl ola biləcək tələbələr yetişdirən bir dövlət ali məktəbidir.

Görüşdə Texnopark sahəsində əməkdaşlıq, birgə layihələrin icrası istiqamətində işlər müzakirə edilib. Süni intellekt texnologiyaları üzrə müəllimlərin Naxçıvan Dövlət Universitetinə dəvət olunması, tələbələrin bu sahə üzrə təcrübi bazaya yiyələnməsi müzakirə edilən əsas məsələlərdən olub. Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb.



FRANSIZ DİLİ DƏRSLƏRİ...

(hekayə)

Anastasiya Prokopyevna Kopılova`ya

Valentin Rasputin

(1937-2015)

Rusiya

Beşinci sinfə qırx səkkizinci ildə getmişəm. Kəndimizdəki məktəb dördillik idi, buna görə də oxumaq üçün əlli kilometr aralıya, rayon mərkəzinə köçməli oldum. Anam bir həftə əvvəl gedib öz tanışıyla danışdı, onlarda qalmağım üçün razılaşıb qayıtdı, avqustun axırıncı günü isə kolxozdakı yeganə yük maşınının sürücüsü Vanya dayı məni aparıb yaşamalı olduğum Daşaltı küçəsində düşürtdü, əşyalarımı evə daşımağa kömək etdi, mehribanlıqla çiynimə vurub getdi. Beləliklə, on bir yaşımda müstəqil həyata başladım.

Qıtlıq vaxtı idi. Biz üç uşaq idik, ən böyüyü mən idim. Xüsusən yazda vəziyyət daha ağır olurdu, mən göyərmiş kartofun gözlərini, yulaf və çovdar dənələrini udurdum, bacımı da udmağa məcbur edirdim ki, mədəmizin başını aldadaq, - belədə yemək haqda çox fikirləşmirdik. Bütün yayı cidd-cəhdlə toxumlarımızı sulayırdıq, amma bəhər olmurdu, ya da elə az olurdu ki, gözümüzə görünmürdü. Məncə, təcrübəsizlikdən nəyisə düz eləmirdik.

Anamın məni rayona göndərməyə necə ürək etdiyini bilmirəm. Atamız yox idi, çox pis yaşayırdıq, yəqin, anam da fikirləşmişdi ki, daha bundan betər ola bilməz. Yaxşı oxuyurdum, məktəbə həvəslə gedirdim, kənddə də savadlı uşaq kimi tanınırdım: qoca nənələrin məktublarını yazırdım, gələn məktubları oxuyurdum, biçimsiz kitabxanamıza gələn kitabları oxuyurdum, axşamlar kitablardakı əhvalatları uşaqlara danışırdım, çox vaxt da özümdən nələrsə əlavə edirdim. Xüsusən istiqraz məsələsində mənə daha çox inanırdılar. Müharibə vaxtı camaatda xeyli istiqraz kağızı yığılmışdı, tez-tez uduş cədvəli gəlirdi, onda mənim yanıma gəlirdilər. Deyirdilər ki, əlim yüngüldür. Doğrudan da, tez-tez uduş olurdu, əsasən xırda məbləğ olsa da, kolxozçular hər qəpiyə sevinirdilər. Xəbəri mən verdiyim üçün, sevincdən mənə də pay düşürdü. Məni başqa uşaqlarla bir tutmurdular, hətta arada yedizdirirdilər. Bir dəfə simic və qənaətcil İlya dayı dörd yüz rubl udduğu üçün mənə bir vedrə kartof vermişdi - yazqabağı bu, sərvət misilində idi.

İstiqraz nömrələrindən başım çıxdığı üçün anama deyirdilər:

- Kəlləli uşaqdır. Sən belə elə... onu oxutdur. Savad itməz.

Və anam heç nəyə baxmayaraq, məni oxumağa göndərdi. Bundan qabaq kəndimizdən heç kim rayon mərkəzində oxumamışdı. Mən birinci idim. Heç mən də nə edəcəyimi, təzə yerdə məni nələr gözlədiyini bilmirdim.

Burda da yaxşı oxuyurdum. Başqa nə edə bilərdim ki? - Bura elə oxumaq üçün gəlmişdim. Məktəbə hansısa dərsi oxumamış getməyə cəsarətim çatmazdı, buna görə də fransız dilindən başqa bütün dərslərdən beş alırdım.

Fransızcadan tələffüzə görə axsayırdım. Sözləri asanlıqla yadımda saxlayırdım, tez tərcümə edirdim, düzgün yazırdım, amma düzgün tələffüz edə bilmirdim, nəslimizdə heç kim bircə kəlmə də xarici söz danışmamışdı, bəlkə də, heç xarici dillərin mövcudluğundan da xəbərləri yox idi. Sözlərin yarısını birtəhər uzadırdım, o biri yarısını isə çeynə-tüpür edirdim. Fransız dili müəlliməmiz Lidiya Mixaylovna mənə qulaq asanda sifətini turşudub, gözlərini yumurdu.

Yəqin ki, heç vaxt buna oxşar bir şey başına gəlməmişdi. O, sözləri dəfələrlə düzgün şəkildə deyirdi və məndən təkrarlamağımı istəyirdi, mənimsə dilim ağac parçasına dönürdü, ağzımın içində tərpənmirdi. Bütün zəhmətim əbəs idi. Amma ən dəhşətlisi, evə qayıdandan sonra başlayırdı. Məktəbdə başım qarışırdı, istər-istəməz uşaqlara qoşulub oynayırdım, dərslərdə yazıb-oxuyurduq. Amma tək qalan kimi darıxmağa başlayırdım - evimiz üçün, kəndimiz üçün darıxırdım. Əvvəllər bircə günlük də olsun, ailəmdən ayrılmamışdım, buna görə də, yad adamların içində yaşamağa hazır deyildim. Çox pis olurdum, ağrıyırdım. Bu istənilən xəstəlikdən daha pis idi. Ancaq bir şey istəyirdim, ancaq bir şeyi arzulayırdım - evimizi, ancaq evimizi! Xeyli arıqlamışdım, anam sentyabrın axırı gələndə mənə görə bərk narahat olmuşdu. Onun yanında özümü tox tutdum, şikayətlənmədim, ağlamadım, amma o gedəndə özümü saxlaya bilmədim, ağlaya-ağlaya maşının dalınca qaçdım. Anam kuzovdan əliylə işarə edirdi ki, dayanım, ağlamayım, özümü və onu biabır etməyim, amma onu başa düşmürdüm. Sonra o maşını saxlatdırıb dedi:

- Get yığış, - yanıma çatan kimi əmr etdi. - Bəsdi bu qədər, yığış gedək evimizə.

Onda ayıldım və qaçdım.

Təkcə darıxdığım üçün arıqlamamışdım. Həm də çox vaxt ac olurdum. Payızda, Vanya dayı rayon mərkəzindən bir az aralıdakı Zaqotzernoya çörək gətirəndə mənə tez-tez evdən bağlama gəlirdi, təxminən həftədə bir dəfə. Amma o mənə çatmırdı. Bağlamada ancaq çörəklə kartof olurdu, hərdən də anam kimdənsə nəyinsə qarşılığında aldığı kəsmikdən bankaya töküb qoyurdu, öz inəyimiz yox idi. Gətirirlər - elə bilirsən çoxdu, iki gündən sonra əl atırsan - heç nə yoxdu. Tezliklə gördüm ki, çörəyimin çoxu sirli şəkildə harasa qeyb olur. Yoxladım, təxmin etdiyim kimi idi. Kartofla da eyni şey olurdu. Görəsən, kim götürürdü - təkbaşına üç uşaqla əlləşən qara-qışqırıqçı Nadya xala, qızlardan hansısa, ya da evin kiçiyi, Fedka - bunu bilmirdim, amma bu haqda fikirləşməyə də qorxurdum, o ki qaldı güdmək ola. Anamın qardaşımla bacımın boğazından kəsib mənə göndərdiyi ərzağın bu yolla itməyi xətrimə dəyirdi. Amma özümü bununla barışmağa da məcbur etdim. Anam bunu bilsəydi də, heç nə dəyişməyəcəkdi.

Burdakı aclıq kənddəki aclığa oxşamırdı. Orda həmişə, xüsusən də payızda nəsə tapmaq olurdu, Anqara çayında balıqlar üzürdü, meşədə quşlar uçurdu. Burda hər şey mənim üçün yad idi: yad adamlar, yad məhsul, yad torpaq. Balaca çaya on dənə tor atırdılar. Bir dəfə bazar günü səhərdən-axşamacan tilov atıb oturdum, cəmisi üç dənə çay qaşığı boyda qumlaqçı (çəki balıqları fəsiləsindən kiçik çay balığı) tuta bildim. Bununla da başını saxlaya bilməzsən. Daha balığa getmədim - nahaq yerə vaxt itirmək nəyə lazım? Axşamları bazarı gəzib nəyi neçəyə satdıqlarını yadımda saxlayırdım, ağzım sulana-sulana, boş əllə evə qayıdırdım. Nadya xalanın sobasında çaydan qaynayırdı, isti suyla qarnımı doldurub, yatmağa uzanırdım. Səhər təzədən məktəbə. Vanya dayının yük maşını gəlib qapıda dayanana qədər beləcə keçinirdim. Nə qədər qənaət etsəm də, bilirdim ki, ərzağın başına həmişəki hadisə gələcək, iki gündən sonra yenə ac qalacağam.

Bir dəfə sentyabrda Fedka mənə dedi:

- Qəpik-qəpik oynamaq istəyirsən?

- Qəpik-qəpik? - Nə dediyini başa düşmədim.

- Oyundu da. Qumar oynayırıq. Pulun varsa, gedib oynayaq.

- Yoxumdu.

- Məndə də yoxdu. Elə-belə gedək baxaq. Görərsən necə maraqlıdı.

Fedkayla əkin sahələrini keçib, qayalığa çatdıq, buraları gicitkən basmışdı. Qayalığı keçəndən sonra aşağıda balaca, hamar tala gördük, uşaqlar burda oynayırdı. Yaxına gəldik. Uşaqlar bizi görəndə özlərini yığışdırdılar. Hamısı mən yaşda olardı, təkcə biri bizdən böyük idi. İri və möhkəm bədəni, kürən saçları vardı, güclü və sözükeçən olduğu bilinirdi. Onu görən kimi tanıdım: yeddinci sinifdə oxuyurdu.

- Bunu nə üçün gətirmisən? - O, narazı halda Fedkadan soruşdu.

- Özümüzünküdü, Vadik, özümüzünküdü, - Fedka dedi. - Bizdə yaşayır.

- Oynayacaqsan? - Vadik məndən soruşdu.

- Pulum yoxdu.
- Bax a, birdən kiməsə burda olduğumuzu deyərsən.
- Bir o qalmışdı! - mən incidim.

Daha mənə fikir verən olmadı. Qırağa çəkilib baxmağa başladım. Hamı oynamırdı, ya altı nəfər oynayırdı, ya da yeddi nəfər, qalanları dayanıb baxırdı, əksəri də Vadikə azarkeşlik edirdi. Buranın ağası o idi.

Oyun elə də çətin deyildi. Hərə on qəpikdən qoyurdu, qəpikləri dairənin içində üst-üstə düzürdülər. Bir neçə metr aralıdan yastı daşı atmaq lazım idi, amma daş dairədən qırağa çıxmamalıydı. Sonra həmin yastı daşla qəpikləri vurub, üzünü çevirmək lazım idi. Çevirə bildinsə, növbətisini vururdun. Çevirə bilməsən, oyun növbəti oyunçuya keçirdi. Əgər daşı uzaqdan atanda qəpiklərdən heç olmasa biri çevrilsəydi, onda bütün qəpikləri o qazanırdı.

Vadik hiylə işlədirdi. Hamı bunu başa düşürdü, amma heç kimin deməyə cəsarəti çatmırdı. Amma həm də yaxşı oynayırdı. Uzaqdan daşı çox sərrast atırdı, qəpikləri çevirəndə də daşı elə vururdu ki, qəpik çox rahatlıqla çevrilirdi. Heç kim onun kimi vura bilmirdi.

Uşaqlar yenə ciblərini eşələyib, qəpik çıxarırdılar, qəpiyi olmayanlarsa qırağa keçib baxırdı.

Məncə, pulum olsaydı, mən də oynaya bilərdim. Kənddə yaşlı nənələrlə çox gəzmişdim, hər şeyə diqqət cəmləməyə öyrəşmişdim. Bundan başqa, dəqiq nişan almaq oyunları oynayırdım. Nəyisə nişangah seçib, ta ki ən yaxşı göstəricini əldə edənə qədər daşla vururdum. Yəni nişan almaqda təcrübəm vardı. Amma pulum yox idi.

Anam pul göndərə bilmədiyi üçün çörək göndərirdi, yoxsa çörəyi burda da ala bilərdim. Kolxozda pulu hardan tapsın? Amma iki dəfə məktubun içində beş rublluq əskinas qoymuşdu. O pula bazarda beş dənə yarımlitrlik süd ala bilərdim, biri bir rubldan. Qarın az olduğu üçün süd içməliydim, tez-tez heç nədən başım fırlanırdı.

Üçüncü dəfə pul gələndə ona süd almadım, xırdalayıb oyun talasına getdim. Yeri əla seçmişdilər, qayalıqların arasında balaca tala. Bura heç yerdən görünmürdü. Kənddə bu oyuna görə döyürdülər, məktəbdən qovmaqla, milisə verməklə hədələyirdilər. Burda bizə heç kim mane olmurdu. Yol da yaxın idi, on dəqiqəyə çatırdın.

Birinci dəfə doxsan, ikinci dəfə altmış qəpik uduzdum. Əlbəttə, pula heyfim gəlirdi, amma oyunda möhkəmlənirdim. Getdikcə daşı atmağa nə qədər güc lazımdırsa, o qədər sərf edirdim, düzgün nişan alırdım, daşın harda yerə düşəcəyini və neçə dəfə fırlanacağını hesablaya bilirdim. Axşam hamı gedəndən sonra yenə bura gəlirdim, cibimdəki qəpikləri yerə düzüb daşla vururdum, hava qaralana qədər məşq edirdim. Artıq on atışdan üçü, ya da dördü uğurlu alınırdı.

Nəhayət, uduşa qaldığım gün gəlib çatdı.

Payız isti və quraqlıq keçirdi. Oktyabrda elə isti idi ki, köynəklə gəzmək olurdu, yağış nadirən yağırdı, elə bil harasa əsən külək buludu yolüstü bizim tərəfdən salırdı. Göy üzü yayda olduğu kimi açıq idi, amma gün artıq tez batırdı. Qayalıqda köçəri quşların səsləri əks-səda verirdi. Bizim talada otlar saralsa da, hələ yumşaq idi. Oynamayan, daha dəqiqi, uduzan uşaqlar sarı otların üstündə otururdu.

İndi hər gün dərsdən sonra bura qaçırdım. Uşaqlar dəyişirdi, təzələri gəlirdi, bircə Vadik bütün oyunlarda burda olurdu. Oyun onsuz başlamırdı. Təzə uşaq da peyda olmuşdu, yekə başını maşınla qırxdırmış bu iri uşaq Vadiki kölgə kimi izləyirdi, ona Quşcuğaz deyirdilər. Quşcuğazı məktəbdə heç görməmişdim. Qabağa qaçıb deyim ki, üçüncü rübdən bizim sinfə gəldi. Demə, o, keçən il sinifdə qalmışdı və hansısa yolla özünə yanvara qədər tətil düzəltdirmişdi. Quşcuğaz da adətən udurdu. Vadikin dostu idi və Vadik ona altdan-altdan kömək edirdi.

Bizim sinifdən Tişkin də arada talaya gəlirdi, gözlərini tez-tez qırpan bu uşaq dərslərdə əl qaldırmağı xoşlayırdı. Bilsə də, bilməsə də, əlini qaldırırdı. Müəllim çağırırdı, o isə susurdu.

- Bəs nə üçün əlini qaldırmışdın? - Tişkindən soruşurdular.

Gözlərini qırpa-qırpa deyirdi:

- Bilirdim, ayağa duranacan yadımdan çıxdı.

Onunla dostluq etmirdim. Kəndin havası başımdan çıxmamışdı, susqun idim, həm də ev üçün darıxırdım deyə, heç kiminlə danışmaq, yoldaşlıq etmək istəmirdim. Onlar da mənə qarşı can

atmırdılar, ona görə də tək idim, tənha qalmışdım. Tənha idim - çünki kənddə deyildim, kənddə dostum çox idi.

Oyun vaxtı Tişkin heç orda olduğuma fikir vermirdi. Gələn kimi uduzub yoxa çıxırdı, bir də bir neçə gündən sonra gəlirdi.

Mənsə, udurdum. Mən hər gün udmağa başlamışdım. Artıq oyunu hesablamağı bacarırdım. Uduzduğum da olurdu, üç oyun, dörd oyun dalbadal uduzurdum, sonrasa bütün kassanı udub uduzduğumun üç qatını qazanırdım.

İndi həmişə pulum olurdu. Amma oyuna çox aludə olmurdum, gecəyə qədər oynamaq mənə lazım deyildi, mənə ancaq bir rubl lazım idi, gündə bircə rubl. Bu pulu udan kimi bazara gəlib, süd alırdım (süd satan nənələr daşın döydüyü qəpiklərə baxanda mızıldanırdılar, amma hər halda süd verirdilər), evə gedib nahar edirdim və dərslərimi oxumağa başlayırdım. Heç vaxt doyunca yeyə bilmirdim, amma süd içə bilirdim, bu fikrin özü məndə doyumluluq hissi yaradırdı və əlavə güc verirdi. Mənə belə gəlirdi ki, başgicəllənmələrim də azalmışdı.

Vadik əvvəl-əvvəl udmağımı sakit qarşılayırdı. O özü də udurdu, udduğum pulların içində onun pulu olmadığına əmin idim. Hərdən məni tərifləyirdi də: baxın, deyirdi, görün necə atmaq lazımdı, baxın öyrənin. Amma tezliklə udan kimi oyundan çıxdığımı hiss elədi:

- Nədi, udan kimi aradan çıxırsan? Yaman bicsən ha! Oyna.

- Dərslərimi oxumalıyam, Vadik, - dedim.

- Dərs oxuyanlar bura gəlmir.

Quşcuğazsa o tərəfdən söz atdı:

- Belə oyun oynamırlar. Buna görə adamı yüngülvarı əzişdirirlər. Başa düşdün?

O gündən Vadik ondan qabaq atmağıma icazə vermirdi, məni lap axıra saxlayırdı. O yaxşı atırdı, amma mən daha yaxşı atırdım. Adətən birinci atışdan qəpiklərin hamısı çevrilirdi. Özüm də buna təəccüblənirdim. Vadiksə ondan yaxşı oynayanları bağışlamırdı. Axı bunu hardan bilə bilərdim? Həmin payız bunu da öyrəndim.

Bir dəfə yenə bütün qəpikləri çevirdim. Onları yığmağa gedəndə Vadikin ayağını qəpiklərdən birinin üstünə qoyduğunu gördüm.

- Uduzdun! - Vadik qışqırdı.

Onun yanına gedib, ayağını qaldırmağa çalışdım. Amma o məni itələdi və qəpiyi özü götürüb göstərdi. Qəpiyi fırlatdığını gördüm.

- Sən qəpiyi fırlatdın, - dedim, - gördüm.

O yumruğunu burnumun altına dirədi.

- Bəs bunu görmədin? İynə gör nə iyi verir.

Razılaşmalı oldum. Dava başlasaydı, heç kim mənə havadar çıxmayacaqdı, hətta buralarda veyillənən Tişkin də.

Vadikin hirsli gözləri üzümə dikilmişdi. Yaxınlıqdakı qəpiyi daşla vurub çevirdim. "Eybi yox, - fikirləşdim, - onsuz da indi udacağam". İkinci qəpiyi vurmaq istəyəndə kimsə dizimin dalına vurdu, üzü üstə yerə yıxıldım. Hamı güldü.

Quşcuğaz dalımda dayanıb hırıldayırdı.

- Neynirsən? - soruşdum.

- Kim dedi ki, mən elədim? Yuxunda gördün?

- Bura ver! - Vadik daşı əlimdən almaq istədi, vermədim. Hirs qorxumu yox eləmişdi, artıq heç nədən qorxmurdum. Nə üçün? Nə üçün belə edirlər? Onlara nə etmişəm?

- Bura ver! - Vadik qışqırdı.

- Bayaq qəpiyi sən fırlatdın! - qışqırdım. - Gördüm mən. Gördüm.

- Bir də de görüm, - üstümə gəlib dedi.

- Sən fırlatdın, - bu dəfə səsim asta çıxdı, çünki nələr olacağını bilirdim.

Quşcuğaz yenə məni daldan vurdu. Vadikin üstünə getdim, o sifətimə kəllə atdı, yerə yıxıldım, burnumdan qan açıldı. Ayağa durmağa macal tapmamış Quşcuğaz üstümə şığıdı. Aradan çıxıb qaça bilərdim, amma bu ağlıma da gəlmədi. Vadiklə Quşcuğazın arasında fırlanırdım, əlimlə burnumu tutmuşdum və dayanmadan təkrarlayırdım:

- Fırlatdın! Fırlatdın! Fırlatdın!

Onlar növbəylə məni vururdular. Bir o, bir bu, bir o, bir bu. Sonra bir nəfər də onlara qoşuldu, bu üçüncü də ayaqlarıma vurmağa başladı. Evdə ayaqlarımın göyərdiyini gördüm. Çalışırdım yıxılmayım, hətta o anda da yıxılmağı eyib sayırdım. Amma axırda onlar məni yerə yıxa bildilər və əl çəkdilər.

- Nə qədər ki, sağsan, əkil burdan! - Vadik dedi.

Ayağa durub axsaya-axsaya getməyə başladım.

- Kiməsə desən, özünü ölmüş bil! - Vadik dalımca qışqırdı.

Cavab vermədim. Hirsdən və utancdan nitqim tutulmuşdu. Amma təpəyə çıxan kimi özümü saxlaya bilmədim, var gücümlə qışqırdım:

- Fırlatdı-ı-ın!

Səsimi yəqin ki, bütün qəsəbə eşitdi.

Quşcuğaz dalımca gəlmək istədi, amma bir neçə addım atandan sonra dayandı, deyəsən Vadik onu saxladı. Təpənin üstündə beş dəqiqə dayandım, talada təzədən oynamağa başlayan uşaqlara baxdım, sonra təpəni aşdım, quru otların üstünə yıxıldım və bərkdən ağlamağa başladım.

Həmin gün dünyada məndən bədbəxt adam ola bilməzdi.

Səhər qorxa-qorxa güzgüyə baxdım. Burnumda qan qurumuşdu, sol gözümün altı göyərmişdi, sol yanağımsa qançır olmuşdu. Bu halda məktəbə getmək olmazdı, amma getməyə də bilməzdim, dərs buraxmağa cəsarətim çatmırdı. Bəs bu qançırı, göyü necə gizlədim? O saat gözə girir.

Gözümü əlimlə tutub sinfimizə girdim, yerimə oturan kimi başımı aşağı saldım. Tərs kimi birinci dərs fransız dili dərsiydi. Lidiya Mixaylovna sinif rəhbəri olduğu üçün bizə başqa müəllimlərdən daha çox diqqət göstərirdi və ondan nəsə gizlətmək çətin idi. O içəri girib salamlaşırdı və bizə "oturun" deməmişdən qabaq bütün uşaqlara diqqətlə nəzər salırdı. Hər nə qədər gizlətməyə çalışsam da, əlbəttə ki, üzümdəki qançırı o saat gördü, sonra bütün sinif mənə baxmağa başladı.

- Belə, - Lidiya Mixaylovna jurnalı açanda dedi, - bu gün aramızda yaralı var.

Hamı gülüşdü, Lidiya Mixaylovna isə yenə mənə baxmağa başladı. Onun gözləri azca çəp idi, amma artıq hara baxdığını tuta bilirdik.

- Nə olub? - o soruşdu.

- Yıxılmışam, - bəhanə fikirləşmək nə üçünsə dünəndən bu yana yadıma düşməmişdi.

- Oy, yaman pis yıxılmısan. Bu gün yıxılmısan, ya dünən?

- Bu gün. Yox, dünən gecə, qaranlıqda.

- Hi, yıxılıbmış! - Tişkin sevinc içində qışqırdı. - Onu yeddinci sinifdən Vadik döyüb. Qumar oynayırdılar, bu tərslik elədi, buna görə də payını aldı. Mən gördüm. Amma deyir ki, yıxılmışam.

Çaşıb qaldım. Görəsən, o, doğrudan, heç nə başa düşmür, ya bilə-bilə edir? Qumar oynadığımıza görə bizi məktəbdən qova bilərdilər. Qorxudan beynimdə fikirlərim qarışdı: bitdi, hər şey bitdi. Hə, Tişkin. Tişkin belə Tişkin imiş. Sevinirdi. Məsələyə aydınlıq gətirdi. Nə deyəsən?

- Səndən, Tişkin, başqa şey soruşmaq istəyirdim. - Lidiya Mixaylovna eşitdiyi xəbərdən təəccüblənmədi, bayaqkı səs tonuyla dedi. - Çıx lövhəyə, bir halda ki, danışmağa başlamısan, çıx, dərsi danış.

Özünü itirmiş, birdən-birə sustalmış Tişkin lövhəyə çıxandan sonra Lidiya Mixaylovna mənə dedi:

- Dərsdən sonra qalarsan.

Hər şeydən çox məni direktorun yanına aparacağından qorxurdum. Bu o demək idi ki, bugünkü söhbətdən əlavə, səhər məni sıranın qabağına çıxarıb, belə çirkin işlə məşğul olmağa nəyin məcbur etdiyini danışdıracaqlar. Uşağın nə etməyindən asılı olmayaraq - pəncərə sındırıb, dava edib, tualetdə siqaret çəkib - direktorumuz Vasili Andreyeviç məhz belə soruşurdu: "Səni belə çirkin işlə məşğul olmağa nə məcbur etdi?". O, əllərini dalında çarpazlayıb əsgər addımlarıyla sıranın qabağında gəzə-gəzə deyirdi: "Danış, danış. Səni gözləyirik. Bax, bütün məktəb səni gözləyir. Görək bizə nə deyəcəksən". Şagird bəraət üçün nəsə mızıldamağa başlayan kimi direktor sözünü kəsirdi: "Sən mənim sualıma cavab ver. Sualım nə idi?" - "Məni nə məcbur

etdi?" - "Ay sağ ol. Nə məcbur etdi? Sənə qulaq asırıq". İş, adətən göz yaşlarıyla qurtarırdı, bundan sonra direktor sakitləşirdi və biz siniflərə gedirdik. Əsas çətinlik yuxarı siniflərlə olurdu, onlar ağlamaq istəmirdilər, direktorun da sualına cavab verə bilmirdilər.

Bir dəfə birinci dərsimiz on dəqiqə gecikdi. Çünki direktor doqquzuncu sinifdə oxuyan birini sorğu-sual edirdi, amma cavab ala bilmədiyi üçün axırda uşağı kabinetinə apardı.

Maraqlıdır, görəsən, mən nə deyəcəyəm? Birbaşa qovsaydılar yaxşı olardı. Bu fikir ağlıma gələn kimi sevindim, çünki kəndə qayıda biləcəkdim, amma elə həmin an da qorxdum: bu vəziyyətdə kəndə də qayıda bilməzdim. Özüm məktəbi atsaydım - bu başqa məsələ... Onda elə bilərdilər ki, etibarsız adamam, məqsədlərimə çatmaq istəmirəm, onda hamı məni lağa qoyardı. Yox, belə də yox. Burda qalıb dözərdim, öyrəşərdim, amma kəndə qayıtmazdım.

Dərsdən sonra koridorda qorxudan əsə-əsə Lidiya Mixaylovnanı gözləyirdim. O, müəllimlər otağından çıxıb məni sinfə apardı. Sinifdə keçib yerində oturdu, mən ondan mümkün qədər aralı olmaq üçün üçüncü sırada oturmaq istədim, amma o məni çağırıb birinci sıranı göstərdi.

- Qumar oynadığın düzdür? - Birbaşa mövzuya keçdi. Özü də çox bərkdən dedi, elə bilirdim məktəbdə bu haqda pıçıltıyla danışmaq lazımdır, qorxum bir az da artdı. Danmağın mənası yox idi, Tişkin artıq məni satmışdı.

- Düzdür, - pıçıldadım.

- Hə, necədi? Udursan, uduzursan?

Bilmədim nə desəm yaxşı olar.

- Olduğu kimi de. Yəqin, uduzursan.

- U...uduram.

- Yaxşı. Deməli udursan. Bəs pulları nə edirsən?

Əvvəl-əvvəl Lidiya Mixaylovnanın səsinə öyrəşə bilmirdim. Bizim kənddə adamlar bərk danışırdı, Lidiya Mixaylovnanınsa səsi incə və yumşaq idi, asta çıxırdı. Başa düşmək üçün diqqətlə qulaq asmalıydın. Bunu fransızcanın boynuna atmağa hazır idim, əlbəttə, xarici dil öyrənəndə, dilin yad sözlərə yatana qədər fikrin yayınır, səsin asta çıxır. İndi də Lidiya Mixaylovna elə danışırdı ki, elə bil fikri başqa yerdə, daha vacib işlərin yanındaydı, sualı elə-belə, sözgəlişi verirdi. Amma suallarından qaçmaq mümkün deyildi.

- Udduğun pullarla nə edirsən? Konfet alırsan? Yoxsa kitab? Bəlkə də, yığırsan. İndi çoxlu pulun olmalıdı.

- Yox, çox deyil. Bir rubl uduram.

- Sonra oynamırsan?

- Yox.

- Nə üçün cəmi bir rubl? Onu nə edirsən?

- Süd alıram.

- Süd?

Bu səliqəli, ağıllı və gözəl müəllimə qabağımda oturmuşdu, paltarı da gözəl idi, vurduğu ətrin iyini duyurdum, üstəlik, o, hansısa hüsnxətt, ya da tarix müəllimi deyildi, fransız dili müəllimi idi, bu dərsin özündə də nəsə sirli bir şey var idi, mənim kimi adamlar bunu başa düşməzdi. Başımı aşağı salmışdım, yalan deməyə də cəsarətim çatmırdı. Həm də, nə üçün onu aldatmalıydım?

O susub, mənə baxmağa başladı, başımı hələ də qaldırmamışdım, amma onun nəzərlərini üstümdə hiss edirdim. Əlbəttə, baxmalı nəsə vardı: onun qabağında döyülmüş, üzü-gözü əzilmiş, əynində köhnə, çiyinləri sallanan pencək və atasının yığılmış tünd-yaşıl rəngli qalife şalvarı olan uşaq oturmuşdu. Hələ əvvəllər də Lidiya Mixaylovnanın çarıqlarıma diqqətlə baxdığına fikir vermişdim. Sinifdə çarıq geyinən bircə mən idim. Növbəti payız məktəbə bu çarıqlarla getmək istəmədim, anam məcbur qalıb evimizdəki yeganə qiymətli əşyanı - tikiş maşınını satıb mənə çəkmə aldı.

- Hər halda qumar oynamaq lazım deyil, - Lidiya Mixaylovna fikirli halda dedi. - Bunsuz da keçinmək olar. Keçinmək olar?

Bununla canımı qurtara bildiyimə inanmayaraq yavaşdan dedim:

- Olar.

Bunu ürəkdən deyirdim.

Düzünü demək lazımdırsa, o günlər mənim üçün xüsusən çətin keçirdi. Kolxozda məhsul çox az olmuşdu, buna görə də, Vanya dayı daha rayon mərkəzinə gəlmirdi, gətirməli heç nə qalmamışdı. Anamın mənim üçün narahat olduğunu bilirdim, amma bu, vəziyyətimi yüngülləşdirmirdi. Axırıncı dəfə göndərdiyi bir kisə kartof elə tez qurtarmışdı ki, elə bil onunla heyvan yemləmişdin. Yaxşı ki, həyətdəki tövlədə bir az kartof gizlətmək ağlıma gəlmişdi, indi onunla dolanırdım. Dərsdən qayıdan kimi gizlicə tövləyə girib cibimə bir neçə dənə kartof basırdım, sonra qayalığa qaçıb xəlvət yer axtarırdım ki, ocaq qalayım. Həmişə yemək istəyirdim, yuxuda da mədəmin quruldadığını hiss edirdim.

Nəhayət, bir gün dözməyib talaya düşdüm. Alçalacağımı bilirdim, amma məni döyüb qovlamaqlarıyla barışmaq bundan az alçaldıcı deyildi. Vadiklə Quşcuğazın gəlişimə necə münasibət göstərəcəyi və mənim özümü necə aparacağım maraqlı idi. Hər şeydən çox, aclıq məni məcbur etmişdi. Mənə bir rubl lazım idi. Bu dəfə süd üçün yox, çörək üçün. Pul qazanmağın başqa yolunu bilmirdim.

Yaxına gələn kimi oyun öz-özlüyündən dayandı, hamı mənə baxmağa başladı. Vadikin başında qulaqlı papaq, əynində qolları qısa dama-dama köynək vardı. Vadik qırmızı gödəkçəsində forslanırdı. Yaxınlıqda üst-üstə yığılmış paltoların, gödəkçələrin üstündə beş-altı yaşlı uşaq oturmuşdu.

Quşcuğaz dedi:

- Nə üçün gəlmisən? Deyəsən, çoxdandı döyülmürsən.

- Oynamağa gəlmişəm. - Özümü sakit saxlamağa çalışaraq, Vadikə baxdım.

- Sənə kim dedi ki, - Quşcuğaz çəmkirdi, - sənlə oynayacaqlar.

- Heç kim.

- Vadik, indidən döyək, yoxsa bir az gözləyək?

- Nə var üstünə düşmüsən, Quşcuğaz, - Vadik mənə baxa-baxa dedi. - Uşaq oynamağa gəlib də. Bəlkə, hərəmizdən on rubl udacaq.

- Sizdə on rubl yoxdu, - sırf qorxacaq görünməmək üçün dedim.

- Bizdə, sənin yuxunda gördüyündən də çox var. Nə qədər ki, Quşcuğaz hirslənməyib, səsini kəs. Yoxsa bilirsən, o hirsli adamdı.

- Vurum onu, Vadik?

- Lazım deyil, qoy oynasın. - Vadik uşaqlara göz vurdu. - O, yaxşı oynayır, biz onun kimi nişan ala bilmirik.

Artıq Vadiki tanıyırdım. Deyəsən, maraqsız oyunlardan boğaza yığılmışdı, buna görə də, əsəblərini sakitləşdirmək və əsl oyunun dadını hiss etmək üçün mənə icazə vermişdi. Amma gərək ona ilişməyəydim, əks halda başıma gələcəkləri bilirdim. O döyməyə səbəb tapardı, Quşcuğaz da yanındaydı.

Ehtiyatla oynamağa başladım, çalışırdım kassaya toxunmayım. Hamı kimi daşı atırdım, sonra da qəpikləri çevirməyə başlayırdım. Həm də tez-tez dala boylanırdım ki, Quşcuğaz heç nə eləməsin. Əvvəl-əvvəl rublu heç arzulamırdım da, iyirmi-otuz qəpiklə kifayətlənirdim, bir tikə çörəyə çatırdı.

Amma əvvəl-axır olmalı olan şey oldu. Dördüncü gün rublu udub gedəndə məni yenə döydülər. Düzdür, bu dəfə yüngül oldu, amma hər halda üzümdə işarə qaldı. Dodağım partlamışdı. Məktəbdə bütün dərsi dodağımı dişləməli oldum. Nə qədər gizlətməyə çalışsam da, Lidiya Mixaylovna onu gördü. Qəsdən məni lövhəyə çağırıb fransızca mətn oxutdurdu. O mətni sağlam dodaqla tələffüz edə bilmirdim, o ki qaldı partlaq dodaqla ola.

- Bəsdir, bəsdir! - Lidiya Mixaylovna üzünü turşutdu. - Bu nədir? Yox, gərək sənlə ayrıca məşğul olum. Başqa çıxış yolu yoxdur.

Beləliklə, mənim üçün ağır və əzablı günlər başladı. Hər gün səhərdən Lidiya Mixaylovnayla tək qalacağımı, onun dediyi dilə yatmayan, ancaq kiməsə əzab vermək üçün düşünülmüş sözləri təkrarlamağa məcbur olacağım vaxtı fikirləşirdim.

Sən demə, bu da hələ hamısı deyilmiş. Birdən Lidiya Mixaylovna dedi ki, ikinci növbənin

dərsi başlayana qədər vaxtımız az qalır, yaxşı çalışa bilmirik, ona görə də axşamlar onun evinə gəlməyimi tapşırdı. O, məktəbin yanındakı müəllimlər evində yaşayırdı. Evin o biri başı - böyük tərəfi direktorun idi. İşim lap çətinləşdi. Onsuz da təbiətən utancaq idim, hər xırda şeyin üstündə sıxılırdım, müəllimənin tərtəmiz evində isə az qala heykələ dönürdüm, nəfəs almağa da qorxurdum. Müəllimə deməsəydi ayaqqabılarımı çıxarıb içəri keçmirdim, stoldan o qədər aralı otururdum ki, axırda özü məni yaxına çəkirdi, danışdırmaq üçün də xeyli çalışmalı olurdu. Fransız dilindən irəliləyiş edə bilməmişdim. Amma, qəribədir ki, evdə məktəbdəkindən az oxuyurduq, hələ guya orda ikinci növbə bizə mane olurdu. Lidiya Mixaylovna daha çox məni sorğu-suala tuturdu və özü haqda danışırdı. Guya o da məktəbdə fransızcadan axsayırmış və heç də başqalarından pis olmadığını sübut etmək üçün məhz bu dili seçibmiş. Bu əhvalatı mənə görə uydurduğundan şübhələnirdim.

Bir küncə qısılıb evə buraxılacağım anı səbrsizliklə gözləyirdim. Otaqda çoxlu kitab vardı, pəncərənin qabağındakı tumbanın üstünə radio qoyulmuşdu. Radionun valoxudanı da vardı - bu o vaxtlar üçün nadir əşya idi, mənim üçünsə, ümumiyyətlə, möcüzə idi. Lidiya Mixaylovna val oxudurdu və valdakı yumşaq kişi səsi fransızca öyrətməyə davam edirdi. Nə edirsən et, fransızcadan heç yerə qaça bilməzsən. Əynində yüngül ev paltarı və yumşaq ayaqqabı olan Lidiya Mixaylovna otaqda gəzişirdi, hər dəfə mənə yaxınlaşanda titrəməyə başlayırdım. Hələ də onun otağında oturduğuma inana bilmirdim, burdakı hər şey mənim üçün gözlənilməz və qeyri-adi idi, hətta burunun havası da bayırdakı havadan fərqliydi. Hərdən özümdən asılı olmayaraq, ağlıma bir fikir gəlirdi, guya mən bu həyata qıraqdan baxıram, bu fikir ağlıma gələn kimi bir az da büzüşüb köhnə pencəyimə bürünürdüm.

Lidiya Mixaylovnanın onda iyirmi beş yaşı olardı. Hələ də onun düzgün cizgili siması, azca çəp gözləri, qısa kəsilmiş qara saçları yadımdadır. Amma sonralar fikir verdim ki, əksər müəllimlərin simasında sezdiyim qəddarlıq ifadəsi onun simasında yox idi. İndi fikirləşirəm ki, deyəsən o bizdə müəllim işləməyə gələnə qədər ərdə olmuşdu, çünki bütün hərəkətlərində cəsarət və təcrübə vardı. Bundan başqa, mənə həmişə belə gəlib ki, fransızca və ispanca öyrənən qızlar, başqa dilləri - tutaq ki, rusca və ya almanca öyrənən yaşıdlarından daha tez yetişir.

Lidiya Mixaylovnanın dərs qurtarandan sonra məni yeməyə çağırması indi də yadıma düşəndə utanıram. Nə qədər ac olsaydım da, o saat iştahım qaçırdı. Lidiya Mixaylovnayla bir stola oturmaq! Yox, yox! Ondansa bir də bura gəlməmək üçün bütün fransızca kitabını səhərə qədər əzbərləmək daha yaxşıdır. Tikəm boğazımda qalardı. O vaxtacan elə bilirdim ki, Lidiya Mixaylovna bizim yediyimiz adi yeməklərlə yox, nəsə möcüzəvi bir şeylə qidalanır. Onu o qədər fərqli hesab edirdim. Mənə yemək təklif edən kimi yerimdən sıçrayıb, tox olduğumu deyə-deyə qapıya tərəf atılırdım. Lidiya Mixaylovna mənə inciklik və təəccüblə baxırdı, amma məni heç cür saxlamaq olmazdı. Mən qaçırdım. Bu bir neçə dəfə baş verdi, ondan sonra Lidiya Mixaylovna daha mənə yemək təklif etmədi. Ondan sonra bir az rahatlaşdım.

Bir dəfə dedilər ki, bir kişi aşağıda mənimçün bağlama qoyub. Vanya dayı gətirib, əlbəttə, Vanya dayı - başqa kim olacaq ki! Çox güman evdə heç kim olmayıb, Vanya dayı da tələsdiyi üçün dərsdən çıxmağımı gözləyə bilməyib, məktəbə qoyub.

Güclə dərsin axırını gözlədim, zəng vurulan kimi aşağı qaçdım. Məktəbin xadiməsi Vera xala küncdəki faner qutunu göstərdi, belə qutularda poçtla nəsə göndərirdilər. Təəccübləndim: nə üçün qutuda? Anam, adətən ərzağı kisədə göndərirdi. Bəlkə, heç bu mənə gəlməyib? Yox, qapağında mənim adım və oxuduğum sinif yazılıb. Yəqin, Vanya dayı burda yazıb ki, səhv düşməsin. Bəs nə üçün anam bu dəfə qutuda göndərib? Bax ha, gör necə intelligent olub!

Qutunu evə aparmağa səbrim çatmadı. Əlbəttə ki, içindəki kartof deyil. Çörək üçün də balacadır, həm də narahat. Həm də ki, çörəyi təzə göndərmişdilər, hələ qurtarmamışdı. Bəs onda qutuda nə var? Pilləkənin altına baxdım, haçansa orda balta görmüşdüm, baltayla qurunun ağzını açdım. Pilləkənin altı qaranlıq idi, ordan çıxıb ətrafa boylandım ki, görən olmasın, qutunu pəncərənin qırağına qoydum.

Qutuya baxan kimi ağlım başımdan çıxdı. Üstdə səliqəylə böyük ağ kağıza bükülmüş makaron qoyulmuşdu. Bax, buna varam! Yan-yana düzülmüş uzun sarı makaronlara baxanda gözlərim

qamaşdı, mənim üçün bundan daha dəyərli heç nə ola bilməzdi. İndi başa düşdüm ki, makaronlar sınmasın deyə, anam onları qutuya yığıb. Ehtiyatla makaronlardan birini götürdüm, baxdım, içini üfürdüm, acgözlüklə xırtıldatmağa başladım. Sonra ikincini, üçüncünü yeyə-yeyə qutunu harda gizlədə biləcəyimi fikirləşməyə başladım, evdəki taxçada siçanlar daraşa bilərdi. Anam axırıncı pulunu verib mənimçün makaron alıb, qoymaram bunu da kartof kimi əkişdirsinlər. Birdən özümə gəldim. Makaron... Doğrudan da, anam makaronu hardan alıb? Bizim kənddə heç vaxt makaron olmayıb. Bəs onda bu nə işdi? Tez-tələsik makaronları qırağa çəkib yeşiyin dibinə baxdım, orda da bir neçə böyük qənd parçası və iki dənə hematogen1 vardı. Hə, bağlamanı anam göndərməyib. Bəs onda kim? Bir də qutunun qapağına baxdım - mənim adım və oxuduğum sinif. Maraqlıdır, çox maraqlıdır.

Qutunun qapağını təzədən yerinə vurub ikinci mərtəbəyə çıxdım, müəllimlər otağına girdim. Lidiya Mixaylovna artıq getmişdi. Heç nə olmaz, harda yaşadığını bilirik, taparıq. Deməli belə: yemək istəmirsən, onda otur evində - ərzağın gəlsin. Belə. Amma yox, keçməz. Əlbəttə, bunu anam göndərməyib: o göndərsəydi kağız da yazardı, bu var-dövləti hardan tapdığını qeyd edərdi.

Məni qoltuğumda bağlamayla görəndə Lidiya Mixaylovna özünü elə apardı ki, guya heç nə başa düşməyib. Onun qabağına, stolun üstünə qoyduğum qutuya baxıb soruşdu:

- Bu nədir? Nə gətirmisən? Nə üçün?

- Bunu siz göndərmisiniz, - səsim titrəyə-titrəyə dedim.

- Nə göndərmişəm? Nə danışırsan?

- Bu bağlamanı məktəbə siz göndərmisiniz. Bilirəm, sizin işinizdi.

Lidiya Mixaylovnanın qızardığı gözümdən qaçmadı. Zənnimcə, bu yeganə an idi ki, qorxmadan gözlərinin içinə baxdım. Artıq müəllim olduğu da yadımdan çıxmışdı. İndi sualı mən verirdim, özü də fransızca yox, rusca. Qoy cavab versin.

- Mənim göndərdiyimi hardan bildin?

- Bizim kənddə makaron olmur, hematogen də olmur.

- Necə? Heç olmur? - O elə ürəkdən təəccübləndi ki, özünü ələ verdiyinə də fikir vermədi.

- Heç olmur. Bilmək lazım idi.

Lidiya Mixaylovna birdən gülməyə başladı, məni qucaqlamaq istədi, amma mən qırağa çəkildim.

- Doğrudan da, bilmək lazım idi. Heç ağlıma gəlməyib. - O, bir dəqiqə fikrə getdi. - Amma hardan biləydim? Mən şəhər adamıyam. Deyirsən heç olmur? Bəs sizdə nə olur?

- Noxud olur. Ağ turp olur.

- Noxud... Ağ turp... Bizdə, Kubanda isə alma olur. İndi bilirsən nə qədər alma var orda? Əvvəl Kubana getmək istəyirdim, sonra nə üçünsə bura gəldim. - Lidiya Mixaylovna köks ötürüb dedi. - Hirslənmə. Yaxşılığını istəyirdim. Makaronların məni satacağını hardan biləydim? Eybi yox, bundan sonra ağıllı olaram. Makaronları götür...

- Götürməyəcəyəm.

- Nə üçün belə edirsən? Çox vaxt ac olduğunu bilirəm. Mən tək yaşayıram, pulum çoxdu. Nə istəsəm ala bilərəm... Tək adamam, özüm də az yeyirəm, kökəlmək istəmirəm...

- Mən ac deyiləm.

- Xahiş edirəm, mənimlə söz güləşdirmə. Qaldığın evin sahibəsiylə danışmışam. Bu makaronlardan özünə dadlı nahar bişirsən, nə olar? Nə üçün sənə bircə dəfə kömək etməyim? Söz verirəm, bir də bağlama filan göndərməyəcəyəm. Amma xahiş edirəm, bunu götür. Oxumaq üçün qarnın tox olmalıdır. Gör məktəbdə nə qədər qarnı tox, başı boş uşaq var. Amma sən ağıllısan, sən oxumalısan.

Onun səsi əsəblərimi sakitləşdirirdi. Onun məni yola gətirəcəyindən qorxub dodaqaltı nəsə mızıldana-mızıldana qapıya tərəf atıldım.

Amma dərslərimiz bununla qurtarmadı, yenə də Lidiya Mixaylovnanın yanına gedirdim. İndi ancaq dərslə məşğul olurduq. Çox güman Lidiya Mixaylovna mənim tərsliyimlə barışmışdı. Vaxt keçdikcə xeyri də oldu, yavaş-yavaş danışığım səlisləşirdi, fransızca sözlər daha əvvəlki

kimi ağzımdan tökülmürdü, qanadlanıb harasa uçmaq istəyirdi.

- Yaxşıdı, - Lidiya Mixaylovna mənə ürək-dirək verirdi. - Bu rübdə beş ala bilməyəcəksən, amma gələn rüb mütləq alacaqsan.

Bir də heç vaxt bağlama söhbətinə qayıtmamışdıq, amma həmişə gözdə-qulaqda idim. Hardan biləsən ki, Lidiya Mixaylovnanın ağlına nə fikir gələcək. Özümdən bilirdim: hansısa iş alınmayanda təslim olmurdum, alınmağı üçün əlimdən gələni edirdim. Elə bilirdim ki, Lidiya Mixaylovna daim mənə göz qoyur və izlədikcə vəhşiliyimə gülür, bu məni hirsləndirirdi, amma qəribə də olsa, bu hirs məndə özümə inam yaradırdı. Daha əvvəlki zəif və köməksiz uşaq deyildim, vaxt keçdikcə bu evə də, Lidiya Mixaylovnaya da öyrəşmişdim. Əlbəttə, hələ də bir az utanırdım, çarıqlarımı stolun altına soxub büzüşürdüm, amma indi özüm ona suallar verirdim, hətta arada mübahisə də edirdim.

Sonralar bir dəfə də mənə yemək təklif etdi, yenə də imtina etdim. Bu mövzuda geriyə addım atmazdım.

Yəqin ki, ev məşğələlərini yekunlaşdırmaq vaxtı çatmışdı, dediyim kimi, danışığım səlisləşmişdi, qalan şeylərisə məktəbdə də öyrənə bilərdim. Hələ qarşıda uzun illər vardı. Hər şeyi indidən öyrənsəydim, sonra nə edəcəkdim? Amma bunu Lidiya Mixaylovnaya deməyə ürək eləmirdim, o isə məşğələləri davam etdirirdi. Fransız dili işgəncəm hələ də davam edirdi. Bir yana baxanda, bu heç işgəncə də deyildi. Vaxt keçdikcə özüm də hiss etmədən bu dilə qarşı marağım yaranırdı və boş vaxtlarımda lüğətlə dərs kitabını götürüb keçmədiyimiz mövzulara baxırdım. Əzab həzzə çevrilirdi. Arada özündənrazılıq da edirdim: alınmırdı - alınacaq, özü də başqalarından da yaxşı. Xəmirimiz başqa şeydən yoğrulmamışdı ki. Bircə Lidiya Mixaylovnanın evinə gəlməli olmasaydım... Mən özüm, özüm də bacarardım...

Bağlama məsələsindən iki həftə sonra Lidiya Mixaylovna gülümsəyib soruşdu:

- Daha qumar oynamırsan? Yoxsa yenə də hardasa yığışıb oynayırsınız?

- İndi necə oynayaq? - Pəncərədən bayırdakı qarı göstərib təəccüblə soruşdum.

- Bəs bu nə oyun idi? Necə oynayırdınız?

- Neyləyirsiniz? - Ehtiyatla soruşdum.

- Maraqlıdır. Biz də uşaqlıqda oynayırdıq. İndi bilmək istəyirəm ki, eyni oyundu, ya başqasıdı?

Oyunun qaydalarını danışdım, əlbəttə ki, Vadikin, Quşcuğazın və oyun vaxtı işlətdiyim bəzi xırda hiylələrin üstündən keçdim.

- Yox, - Lidiya Mixaylovna başını yellətdi. - Biz başqa cür oynayırdıq. Bax.

Lidiya Mixaylovna ayağa durub stulu divarın qabağından çəkdi, çantasından xırda pul çıxarıb yerdə oturdu.

- Bura gəl, bax. - Qəpiyi yüngülcə divara vurdu, qəpik cingildəyib yerə düşdü. - İndi sən vurursan. Amma elə atmalısan ki, qəpiyin mənim qəpiyimə yaxın düşsün, bir əlin barmaqları çatacaq qədər yaxın. Elə olsa, udursan. Vur.

Vurdum. Qəpik divarın küncünə düşdü.

- O-o, - Lidiya Mixaylovna əlini yellətdi. - Çox uzaqdı. İndi sən başlayırsan. Amma yadında saxla, mənim qəpiyim sənin qəpiyinin üstünə düşsə, lap küncü də düşsə, onda mən ikiqat uduram. Başa düşdün?

- Başa düşməli nə var ki?

- Oynayaq?

Qulaqlarıma inanmadım:

- Sizinlə?

- Nə olacaq ki?

- Siz axı müəllimsiniz!

- Nə olsun? Müəllim adam deyil? Hərdən müəllim olmaqdan, öyrətməkdən yorulursan. Həmişə öz-özünə qadağalar qoyursan: onu olmaz, bunu olmaz. - Lidiya Mixaylovna pəncərədən bayıra baxmağa başladı, gözləri yol çəkdi. - Hərdən müəllim olduğunu unutmaq yaxşıdır, yoxsa elə adam olarsan ki, hamı sənin lə darıxar. Məncə, müəllim hər şeyi ciddiyə almamalıdır, ancaq öyrətməklə məşğul olmamalıdır. - O birdən-birə canlandı. - Uşaqlıqda dəcəl qız idim,

valideynlərim mənə görə çox əziyyət çəkib. Elə indi də tez-tez qaçmaq, tullanmaq istəyirəm. Bir də görürsən burda tullanmağa başlayıram, evdə qaçıram. Adam yaşlananda qocalmır, uşaq olmağı tərgidəndə qocalır. Məmnuniyyətlə hər gün tullanıb-düşərdim, amma divarın o tərəfində Vasili Andreyeviç yaşayır. O çox ciddi adamdır. Qəpik-qəpik oynadığımızı bilməməlidir, yaxşı?

- Biz axı oynamırıq. Siz, sadəcə, mənə necə oynamaq lazım olduğunu göstərdiniz.

- Biz oynaya bilərik. Amma sən məni Vasili Andreyeviçə satma.

İlahi, dünyada nələr olurmuş! Bir neçə ay qabaq, Lidiya Mixaylovna qəpik-qəpik oynadığımı direktora deyəcək deyə, ürəyim əsirdi, indi isə o, məndən onu satmamağımı xahiş edir.

- Hə, nə deyirsən? Oynayaq? Xoşuna gəlməsə oynamarıq.

- Oynayaq, - qərarsızlıqla dedim.

- Başla.

Qəpikləri götürüb başladıq. Lidiya Mixaylovna doğrudan da, haçansa oynamışdı, mənimsə hələ əlim yatmamışdı, qəpiyi necə vuracağımı, haçan hardan vursam yaxşı olacağını hələ bilmirdim. Əlbəttə ki, tərəf-müqabilimin Lidiya Mixaylovna olması məni daha çox sıxırdı. Belə bir şeyin mümkün olduğu heç yuxuma da girməzdi. Amma yavaş-yavaş fikrimi oyuna cəmləməyə başladım. Birdən Lidiya Mixaylovna oyunu saxladı:

- Yox, belə maraqlı deyil. - Gözünün üstünə tökülən saçları arxaya atıb dedi. - Üçyaşlı uşaqlar kimi oynayırıq, gəl doğrudan oynayaq.

- Onda axı puldan oynayacağıq, - cəsarətsiz halda dedim.

- Əlbəttə. Bəs əlimizdəki nədir? Qəpik oyununu puldan oynayarlar da. Oyunun yaxşı tərəfi də budur, pis tərəfi də. Uduşa kiçik məbləğ də qoya bilərik, nə də olmasa, maraq yaranacaq.

Nə edəcəyimi bilmədən susdum.

- Yoxsa qorxursan? - Lidiya Mixaylovna məni qıcıqlandırmağa çalışdı.

- Bir o qalmışdı! Mən heç nədən qorxmuram.

Cibimdə bir az xırda pulum vardı. Lidiya Mixaylovnanın qəpiyini özünə qaytarıb pulumu çıxardım. Nə olar, gəlin doğrudan oynayaq, Lidiya Mixaylovna. Nəyimə lazım, özünüz istədiniz. Vadik də əvvəlcə məni ciddiyə almamışdı, amma sonra qabağımı almaq üçün yumruğa əl atdı. Orda öyrənmişdim, burda da öyrənərəm. Fransız dili qədər çətin olmayacaq ki. fransızcanı öyrənirəmsə, bunu da öyrənərəm.

Amma Lidiya Mixaylovna əvvəlcədən şərt kəsdi. Onun əlləri böyük olduğu üçün baş və orta barmağıyla ölçəcəkdi, mənsə oyunun qaydasında olduğu kimi, baş və çeçələ barmağımla. Bu ədalətli şərt idi, razılaşdım.

Təzədən oynamağa başladıq. Ayaq üstündə dayanıb qəpiyi atırdıq, sonra diz üstə oturub məsafəni ölçürdük. Lidiya Mixaylovna çox səs-küy salırdı, qışqırırdı, əllərini bir-birinə vururdu, özünü müəllim yox, qız uşağı kimi aparırdı. Amma hər halda o udurdu. Qısa vaxtda səksən qəpik uduzdum, güclə də olsa, bunu otuz qəpiyə sala bildim, amma gözümü yumub-açan kimi gördüm ki, artıq borcum əlli qəpik olub. Yox, belə olmazdı, cibimdə üst-üstə bir rubldan bir az çox pul vardı, belə getsə, tezliklə hamısını uduzacaqdım. Belə danışmışdıq ki, oyun qurtaran kimi uduzduğumuz məbləği verək.

Elə bu vaxt hiss etdim ki, Lidiya Mixaylovna məni udmağa çalışmır. Məsafəni ölçəndə barmaqlarını tam açmırdı, mənim barmaqlarımın rahatlıqla çata bildiyi məsafəyə onun barmaqları çatmırdı. Bu, xətrimə dəydi, ayağa durdum.

- Yox, - dedim, - mən belə oynamıram. Nə üçün uduzmağa çalışırsınız? Bu düzgün deyil.

- Barmağım doğrudan ona çatmır, - o özünü təmizə çıxarmağa çalışdı. - Əlim elə bil taxtadandı.

- Çatar.

- Yaxşı, çalışacağam.

Növbəti gün cəmisi onbeş-iyirmi dəqiqə dərs oxuduq. Mən fransızca mətn oxudum, Lidiya Mixaylovna düzəlişlər etdi, təzədən oxudum və oynamağa başladıq. İki dəfə uduzandan sonra udmağa başladım. Artıq əlim oyuna yatmışdı.

Yenə pulum olurdu. Yenə bazara qaçıb donmuş fincanda süd alırdım. Fincanın üzündən donmuş təbəqəni ehtiyatla sındırıb sovurardım, südün dadını hiss edirdim, həzzdən gözlərimi

yumurdum. Sonra fincanın dibindəki təbəqəni sındırıb əridirdim, onu da bir tikə qara çörəklə yeyirdim.

Heç nə olmaz, yaşayarıq, hələ müharibənin vurduğu yaraları sağaldaq, söz veriblər ki, hamı xoşbəxt olacaq.

Əlbəttə, hər dəfə Lidiya Mixaylovnadan pul alanda özümü birtəhər hiss edirdim, amma özümü bununla sakitləşdirirdim ki, bunu düzgün yolla udmuşam. Heç vaxt oynamaq üçün can atmırdım, həmişə Lidiya Mixaylovna özü təklif edirdi. Etiraz etməyə cəsarətim çatmırdı. Elə zənn edirdim ki, oyun Lidiya Mixaylovnaya sevinc bəxş edir, o əylənirdi, gülürdü.

Kaş ki, bunun nəylə qurtaracağını biləydik...

...Üzbəüz diz üstə oturub hesab haqda mübahisə edirdik. Deyəsən, ondan qabaq da nə üçünsə mübahisə etmişdik.

- Başa düş, ay key, - Lidiya Mixaylovna əl-qolunu ölçə-ölçə sübut etməyə çalışırdı, - nə üçün səni aldadım? Hesabı mən aparıram, sən yox, ona görə də mən yaxşı bilərəm. Mən üç dəfə dalbadal uduzmuşam.

Bir-birimizin sözünü kəsib qışqırırdıq, bu vaxt təəccüblü, amma ötkəm, cingiltili səs eşitdik:

- Lidiya Mixaylovna!

Donub qaldıq. Qapıda Vasili Mixayloviç dayanmışdı.

- Lidiya Mixaylovna, burda nə baş verir?

Lidiya Mixaylovnanın rəngi qızarmışdı, yavaş-yavaş ayağa durub üst-başını səliqəyə saldı, saçını düzəltdi.

- Vasili Mixayloviç, əvvəlcə qapını döyəcəyinizi gözləyirdim.

- Qapını döydüm. Amma eşitmədiniz. Burda nə baş verir? Xahiş edirəm deyəsiniz. Direktor kimi bilməyə haqqım var.

- Qəpik-qəpik oynayırıq. - Lidiya Mixaylovna sakitcə cavab verdi.

- Qumar oynayırsınız? Bununla?.. - Vasili Mixayloviç barmağıyla məni göstərdi, mən qorxudan büzüşüb kandara çəkildim ki, o biri otağa girim, məni görməsin. - Şagirdlə oynayırsınız? Düz başa düşdüm?

- Düzdür.

- Nə deyim, heç bilmirəm... - Direktor dərindən nəfəs aldı, elə bil havası çatmırdı. - Sizin hərəkətinizə ad qoymaq çətindir. Bu cinayətdir, əxlaqsızlıqdır. Bu... bu... İyirmi ildir məktəbdə işləyirəm, hər şey görmüşəm, amma beləsini...

O əllərini havada oynatdı.

Üç gündən sonra Lidiya Mixaylovna getdi. Getməmişdən qabaq məni dərsdən sonra qarşıladı, evə ötürdü.

- Kubana gedirəm, - sağollaşanda dedi. - Sən oxu, heç kim sənə toxunmayacaq. Günahkar mənəm. Sən oxu.

Saçımı qarışdırıb getdi.

Onu bir də heç vaxt görmədim.


Qışın ortasında, yanvar tətilindən sonra məktəbə mənimçün bağlama gəldi, poçtla göndərmişdilər. Yenə pilləkənin altındakı baltayla qapağını açdım. Üstdə səliqəylə kağıza bükülmüş makaron vardı. Altdan isə qalın kağıza bükülmüş üç dənə qırmızı alma tapdım.

Əvvəllər almanı ancaq şəkillərdə görmüşdüm, amma o saat bildim ki, bunlar almadır.

1973

Tərcümə: **Həmid Piriyev**

ƏN TƏMİZ HAVALI ÖLKƏ - NORVEÇ



İsveçrənin "IQAir" şirkətinin mütəxəssisləri müəyyən ediblər ki, 6475 şəhərdən yalnız 222-nin orta hava keyfiyyəti Ümümdünya Səhiyyə Təşkilatının standartlarına cavab verir.

Tədqiqatdakı bütün məlumatlar dünya üzrə yerüstü hava keyfiyyəti stansiyalarından istifadə etməklə toplanıb. Məlumat real vaxt rejimində alınıb.

ÜST tələblərinə görə, havadakı təhlükəli PM2.5 hissəciklərinin orta səviyyəsi ildə bir kubmetr üçün 5 mikroqramdan çox olmamalıdır.

Ən keyfiyyətli hava Norveç, Danimarka, İsveç, Avstraliya, Yaponiya, Kanada, Böyük Britaniyada qeydə alınıb. Həmçinin, Yeni Kaledoniya, ABŞ-ın Virciniya adaları, Puerto-Riko, Kape Verde, Finlandiya, Qrenada, Baham adaları, Avstraliya, Estoniya da reytinqin yuxarı pillələrində qərarlaşıb.



QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. htt://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi